AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 DEKABR 2018-ci il ŞƏNBƏ № 275 (6308) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 115; 2004, N 9, maddə 665; 2006, N 3, maddə 207, N 11, maddə 909; 2007, N 10, maddə 928; 2009, N 10, maddə 761, N 12, maddə 944; 2011, N 6, maddə 459, N 8, maddə 749; 2014, N 7, maddə 757; 2016, N 4, maddə 655) 16.7-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"16.7. Müvəkkilin, sabiq müvəkkilin və onun ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1233-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1233-VKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

# Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir



**Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır.**

Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Müasir Azərbaycan tarixinin bütöv bir epoxası, önəmli bir mərhələsi ulu öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ümummilli liderin 34 illik rəhbərliyi dövrü Azərbaycan tarixinin ən yüksək inkişaf mərhələsi olmuşdur. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənəsidir. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, həyatımızın bütün sahələrində yüksəliş, tərəqqi var. İqtisadi artım tempinə görə respublikamız son illər bütün dünyada lider mövqeyə yüksəlib.

Bu gün ölkəmizdə davam edən geniş quruculuq işləri Heydər Əliyev zəkasının bəhrəsidir. Azərbaycanın tarixinə qurucu və xilaskar kimi daxil olmuş ulu öndərimiz xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir. Azərbaycan tarixinin görkəmli siması olan Heydər Əliyev xalqımızın qəlbində özünə əbədi abidə qurmuş şəxsiyyətdir. Azərbaycanın yeni tarixi məhz ulu öndərin liderliyi və müəllifliyi ilə yaranıb. Bu dahi insan dövlət idarəçiliyinin hər bir mərhələsində vətəninə, xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə yanaşıb, milli ideallara daxilən bağlı olub. Azərbaycanın məşhur isimlərinin malik olduğu ali keyfiyyətlər küll halında Heydər Əliyev dühasının kamil şəxsiyyətində təcəssümünü tapır. Ümummilli lider unikal bir siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıb.

Hər bir tarixi şəxsiyyətin xidmətləri mənsub olduğu xalqın yaddaşında əbədi qalır, ancaq bununla məhdudlaşmır. Çünki elə dühalar var ki, onlar həm də bəşər əhəmiyyətli işlər görürlər. Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyev məhz həmin şəxsiyyətlərdəndir. Tarix sübut edir ki, müəyyən səbəblərdən milli dövlətçiliyini və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən xalqlar çətin sınaqlarda məsuliyyəti üzərinə götürmüş qətiyyətli liderlərin sayəsində mövcudluqlarını qorumuş, çətinliklərə sinə gərmiş, milli ideya ətrafında birləşmişlər. Ulu öndər Heydər Əliyev öz xalqına, Vətəninə sonsuz sədaqəti, tükənməz məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin əməyi ilə Azərbaycanın iyirminci əsr ictimai-siyasi, sosial-iqtisadi, mədəni və mənəvi həyatında dönüş yaradaraq ümummilli liderlik ucalığına yüksəlmişdir. Müdrik rəhbər böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış və ən başlıcası müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin ən böyük nəticəsi xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Ulu öndərin Azərbaycan tarixində ən böyük xidmətlərindən biri də olduqca ağır şəraitdə müstəqilliyimizi xilas etmək, hüquq və ədalətə, demokratik inkişafa əsaslanan güclü dövlətçiliyin əsasını qoymaqdan ibarət olmuşdur. Məhz böyük öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqillik tarixində yeni, real dövlət quruculuğu səhifəsi açılmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuş, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesinin yeni mərhələsi başlanmışdır. Qısa zamanda müdrik rəhbərin dərin məntiqinin, silinməz dəst-xəttinin, zəngin siyasi təcrübəsinin və işıqlı zəkasının ən böyük bəhrələrindən biri olan Konstitusiya layihəsi hazırlanmış və geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. Yeni Konstitusiya Azərbaycanda dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açmışdır. Konstitusiya sovet rejiminin institutlarını, dəyərlər kimi xalqın beyninə yeridilən ideologiyaları əbədi tarixə gömərək demokratik inkişafın möhkəm bünövrəsini qoymuşdur. Həmin dövrdə məhz ulu öndərin Konstitusiyanın hazırlanması işinə rəhbərlik etməsi onun mükəmməlliyini, siyasi-hüquqi akt və tarixi sənəd kimi yüksək nüfuzunu təmin edən amil olmuşdur. Beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən Əsas Qanunumuz Azərbaycanın qanunvericilik müstəvisini dünyanın mütərəqqi, demokratik dəyərləri ilə zənginləşdirməklə ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisinə çevrilmişdir. Məhz bu ali sənəddə sosial dövlət konsepsiyası öz əksini tapmış, Azərbaycan dövlətinin hər bir vətəndaşının rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalındığı bəyan edilmiş, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan edilmiş və qorunması dövlət hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilmişdir.

"Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir", - deyən ümummilli lider bununla Konstitusiyanın başlıca hədəflərini müəyyən etmişdir.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə məhkəmə-hüquq islahatlarının aparılması, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyulmuşdur.

Ulu öndər Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla insan hüquqlarının təminatı istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyən edilmiş, bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə dahi rəhbər tərəfindən 1998-ci il iyun ayının 18-də xüsusi Sərəncam imzalanmışdır ki, məhz bu sərəncamla "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramında insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin təkmilləşdirilməsi məqsədilə qanun layihələrinin hazırlanması, "Prokurorluq haqqında", "Vəkillik haqqında", "Notariat haqqında" qanun layihələri üzrə işlərin tamamlanması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Azərbaycanın hüquqi dövlət və humanizm prinsiplərinə sadiqliyini əks etdirən mühüm hadisələrdən biri Avropa Şurasına üzvlüyə qədər ölkədə ölüm hökmünün ləğv edilməsi olmuşdur. 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 10 fevral 1998-ci il tarixdə ölüm cəzasının tam ləğvi müdrik şəxsiyyətin daxilən yüksək humanizm, insanpərvərlik kimi keyfiyyətlərə malik olduğunun bariz nümunəsidir.

**(davamı 2-ci səhifədə)**

*Leonid Yakuboviç:*

# Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi

**"Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda yalnız iki və ya üç bu cür adamla rastlaşmışam". Rusiyalı məşhur teleaparıcı Leonid Yakuboviç "Moskva-Baku" portalına müsahibəsində söyləyib.**

AZƏRTAC xəbər verir ki, L.Yakuboviç Azərbaycanın ümummilli lideri Heydər Əliyevlə görüşünü xatırlayaraq deyib:

-Bu hadisə çoxdan, lap çoxdan olub. Hətta hansı ildə görüşdüyümüzü unutmuşam. Bizim "Pole çudes" komandası Bakıya gəlmişdi, idman zalında oyun keçirdik, ertəsi gün Heydər Əliyevlə görüşdük.

Əvvəlcə bu görüş 20 dəqiqəlik protokol tədbiri kimi nəzərdə tutulmuşdu. Heydər Əliyev stolun yuxarı başında əyləşmişdi. O, Azərbaycanın siyasi və iqtisadi vəziyyətini qısaca izah etdi, amma əslində mən heç nə başa düşmədim. İyirmi dəqiqəlik söhbətdən sonra o dedi: "Hamınız azadsınız, siz isə, Leonid, əyləşin".

Beləcə, 20 dəqiqəlik görüş 2 saat yarımlıq söhbətə çevrildi. Daha doğrusu, bu, mənim monoloqum idi, Heydər Əliyev susur, mən isə bütün həyatımı, lap doğulduğum vaxtdan ona söyləyirdim. O, heç nə soruşmur, amma məni diqqətlə dinləyirdi. Hərdən başını tərpədir, mən yorulanda söhbəti istiqamətləndirirdi. O, özünü əsla məndən yuxarı tutmur, öz mövqeyini qabartmırdı. Hərdən sakit səslə nə isə soruşurdu.




Mən ona hər şeyi danışdım: atam və anam haqqında, atamın harada vuruşması barədə, necə dolanmağımız haqda - hər şeyi! O vaxt mən hiss etmirdim ki, danışan təkcə mənəm. Onun yanında özümü çox rahat hiss edirdim.

Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda iki və ya üç bu cür adamla rastlaşmışam. Onun gözləri çox şeydən xəbər verirdi.

Heydər Əliyev təpədən-dırnağa qədər bilik, intellekt sahibi idi. Bizim yeganə görüşümüzün təsirindən hələ də özümə gələ bilmirəm. Mən bütün söhbətimizi kağıza köçürmək istədim, amma nədənsə alınmadı. Məndə belə hiss yaranmışdı ki, onunla min ildir tanışıq və o, sanki mənim gəlməyimi, hər şeyi ona danışmağımı gözləyirdi.

Sonradan onunla söhbətimizi təhlil edərək xalqın nə üçün onun ardınca getdiyini başa düşdüm. Onu dinləyir və eşidirdilər. O, nəhəngdir. Mən güman etmirəm ki, ondan qorxurdular. Xalq ona hədsiz hörmət bəsləyir və ümid edirdi ki, respublikanı yalnız o, xilas edə bilər.

Heydər Əliyevin oğlu İlham ona çox oxşayır. Bu, Əliyev geninin gücünə dəlalət edir. Təbiət bu genin qüdrətini İlham Heydər oğluna ötürüb. O, atasına xas olan daxili qüvvəni, güclü xarakteri əxz edib.

**AZƏRTAC**

# Xalqımızın ulu öndəri - Heydər Əliyev

**Azərbaycan xalqının böyük oğlu, vətənə və xalqa hədsiz məhəbbəti ilə seçilən Heydər Əliyevin əbədiyyətə qovuşmasından artıq 15 il keçir. Onun parlaq şəxsiyyəti, vətənimiz və xalqımız qarşısında ölçüyəgəlməz xidmətləri barədə nə qədər söz deyilsə, kitab və tədqiqat əsərləri yazılsa da heç vaxt yetərincə olmayacaq. Heydər Əliyevin mənalı həyatı və yorulmaz fəaliyyəti Azərbaycanın yarım əsrlik tarixini özündə əks etdirən böyük bir külliyyatdır, hər zaman öyrənilməli və öyrədilməlidir.**



Müstəqil dövlətçiliyimizin qurucusu Heydər Əliyevi ümummilli lider səviyyəsinə qaldıran əsas cəhət və amil onun bənzərsiz xarizmatikliyidir. Bu siyasi mənada, xalqı öz liderlik qabiliyyətinə və missiyasına inandırmaq, kütləri öz arxasınca aparmaq bacarığına və qüdrətinə malik olmaq deməkdir. 1994-cü ilin oktyabr hadisələrini xatırlayaq, Heydər Əliyevin "Vətən təhlükədədir" çağırışı ilə gecənin bir aləmində yüz minlərlə insan meydana axışdı. Xalq - Heydər Əliyev birliyi reallaşdı, Azərbaycan faciələrdən, parçalanmaq təhlükəsindən qurtuldu. Siyasi liderə, böyük dövlət xadiminə xas olan bütün nadir keyfiyyətlər Heydər Əliyevdə cəm olmuşdu və elə bu keyfiyyətlər onu siyasətimizin, tariximizin ümummilli liderinə çevirdi.

Heydər Əliyevin dahi siyasi lider kimi fenomenal xüsusiyyətlərindən biri də orijinal fikirlərini, möhtəşəm ideyalarını sadə sözlə, dəmir məntiqlə xalqa çatdıra bilməsi idi. O, böyük təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olmaqla bərabər, həm də məharətli natiq idi. Gur səsi, parlaq nitqi və dəmir məntiqi ilə dərhal diqqəti cəlb edir, siyasət, iqtisadiyyat, mədəniyyət və sairə mövzularda təkrara və fasiləyə yol vermədən saatlarla danışa bilirdi. Hələ sovetlər dönəmində Azərbaycan Respublikasına rəhbərlik etdiyi ilk illərdə Heydər Əliyev Sovetlər İttifaqında cərəyan edən ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq hadisələrə ümumi qəbul edilmiş standart meyarlarla deyil, tarixi meyarlarla qiymət verirdi. Məhz Heydər Əliyevin titanik səylərinin, rasional təşəbbüslərinin nəticəsi idi ki, qısa zamanda Azərbaycan iqtisadiyyatına külli miqdarda investisiya cəlb edildi, respublikada güclü sənaye potensialının yaradılmasına başlandı. Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, dövlət orqanlarında milli kadrlara üstünlük verilməsi, milli mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın, təhsilin inkişaf etdirilməsi istiqamətində həyata keçirilmiş çoxsaylı tədbirlər isə xalqımızın milli özünüdərkinin yüksəlişinə şərait yaratdı. Azərbaycanla bir yerdə Heydər Əliyev də ucaldı, bütün İttifaqda şöhrət qazandı, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifələrinə irəli çəkildi. Moskvada yüksək dövlət və partiya vəzifələrində işlədiyi illərdə də o öz xalqına sadiq qalaraq bütün bacarığını və dövlətçilik təcrübəsini Azərbaycanın inkişafına və dünya miqyasında tanınmasına həsr edir.

Heç də təsadüfi deyil ki, vətənimizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası prosesinin hazırkı təməli Heydər Əliyev tərəfindən həmin illərdə, yəni 1969-1982-ci illərdə yaradılmış iqtisadi potensiala əsaslanır. Heydər Əliyev respublikanın iqtisadiyyatını inkişaf etdirməklə bərabər, cəmiyyətdə də bir saflığın, düzgünlüyün mübarizəsinə qalxmışdı. Həmin dövrdə bütün İttifaqı cənginə almış bürokratiya və rüşvətxorluğa qarşı Azərbaycanda, sözün əsl mənasında, müharibə elan olunmuşdu. Heydər Əliyev problemlərdən qaçmırdı, onları qabartmağa və həllinə nail olmağa üstünlük verirdi. Bu, ümummilli liderin idarəçiliyinin əsas prinsiplərindən biri idi və onun Azərbaycana birinci rəhbərliyi dövründə qazanılan uğurların əsasını təşkil edirdi.

Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə, 90-cı illərdə müstəqilliyin əldə edilməsi ilə ideoloji çərçivələr götürülsə də, respublikada vəziyyət həddindən artıq ağır idi - xarici qüvvələrin dəstəyi ilə qərbdən erməni təcavüzü başlamış, şimalda və cənubda isə separatçılıq meyilləri güclənmişdi, ölkəni iqtisadi tənəzzül və siyasi xaos bürümüşdü, dövlətçilik böyük təhlükə altında idi. Ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Belə ağır bir şəraitdə Heydər Əliyev yalnız öz siyasətinə və xalqın dəstəyinə arxalanaraq quruculuq missiyasını bacarıqla həyata keçirdiyi kimi, xilaskarlıq missiyasını da uğurla həyata keçirdi, dövlətçiliyi möhkəmləndirdi, müstəqilliyi əbədiləşdirdi.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdığı ilk günlərdən görkəmli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. O, təcrübəli dövlət xadimi kimi çox gözəl bilirdi ki, sabitlik olmayan yerdə nizami ordu qurmaq, demokratik islahatlar aparmaq, iqtisadi inkişafa nail olmaq mümkün deyil. Həmin dövrdə Azərbaycanın Silahlı Qüvvələrinin böyük bir hissəsi ayrı-ayrı cinayətkar əllərdə cəmləşmişdi, siyasi məqsədlərə, hakimiyyət uğrunda mübarizələrə cəlb edilmişdi, vətən torpağı müdafiəsiz qalmışdı, ərazilərimiz işğal olunurdu. İlk növbədə bu qeyri-qanuni silahlı dəstələri ləğv etmək, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə almaq lazım idi. Uzun sürən daxili çəkişmələrdən sonra ölkədə ictimai-siyasi sabitlik yaratmaq çətin olsa da, siyasətimizin patriarxı bu çətin işlərin öhdəsindən xalqın dəstəyi ilə məharətlə gəldi.

Dahi siyasətçinin uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlanması oldu. Həmin dövrdə Azərbaycan Ordusunun əks-hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ ilə dünyanın aparıcı neft şirkətləri arasında respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı.

Bu gün birmənalı olaraq demək olar ki, Azərbaycan xalqının demokratik, hüquqi dövlətdə yaşamaq ideallarının real və dayanıqlı əsaslar üzərində gerçəkləşməsi Heydər Əliyevin adı ilə bağlıdır. Siyasi-iqtisadi və sosial-mədəni sahələrdə olduğu kimi, qanunvericilik məsələlərində də zamanın nəbzini düzgün tutmağı bacaran Heydər Əliyev Konstitusiyanın müstəqil dövlətin həyatında oynadığı rolu tam ciddiliyi ilə qiymətləndirərək və onun inkişafa doğru yolda, bir növ, kompas olduğunu bilərək diqqəti müstəqil respublikamız üçün həyati əhəmiyyətli bu qanunlar toplusunun yaradılmasına yönəltdi. Müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlandı və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul olundu.

Bu, bir həqiqətdir ki, millətin gücü və nüfuzu onu təmsil edən rəhbərin şəxsiyyətindən, məqsədyönlü siyasətindən, diplomatik məharətindən birbaşa asılıdır. Ümummilli lider məhz bu keyfiyyətləri sayəsində xalqın dəstəyi ilə gənc dövlətimizə ziyan verəcək amilləri və qüvvələri neytrallaşdırmağı bacarır, fayda verə biləcək bütün mütərəqqi ideyaları səylə bir yerə cəmləyir, onları elmin və nəzəriyyənin süzgəcindən keçirərək təcrübədə ardıcıllıqla tətbiq edirdi. Azərbaycanı mövcud problemlərdən qurtarmaq və onu dünyanın sivil ölkələri səviyyəsinə qaldırmaq üçün nadir intellektual potensialından, tükənməz enerjisindən və hələ sovet dövründə qurduğu beynəlxalq əlaqələrindən məharətlə istifadə edirdi. Dünyanın aparıcı dövlətlərinin respublikamıza marağı bir tərəfdən onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ilə əlaqədar idisə, digər tərəfdən dövlət başçısı kimi yürütdüyü praqmatik və iqtisadi cəhətdən perspektivli siyasətlə, bu siyasətin yaratdığı ictimai-siyasi sabitliklə bağlı idi. Heydər Əliyevin müdrik xarici siyasəti bizə qərəzli münasibət bəsləyən ölkələrin də Azərbaycana qarşı xeyirxah niyyətdə olmalarını təmin etməyə, dost ölkələrlə əlaqələri daha da möhkəmləndirməyə, bütün bu münasibətlərdən isə qarşılıqlı faydalı, milli maraqlara uyğun olaraq daha səmərəli istifadə etməyə xidmət edirdi.

Heydər Əliyevin müstəqilliyimizin əbədiləşdirilməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın xoşbəxt gələcəyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi titanik siyasəti barədə danışarkən bu siyasi kursun davam etdirilməsinin alternativsizliyini qeyd etmək zərurəti yaranır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Heydər Əliyev qeyri-adi uzaqgörənliyə malik böyük siyasətçi, zəmanəsinin və millətinin dahi lideri kimi xalqının gələcəyini və vətəninin taleyini düşünərək özündən sonra siyasi kursu davam etdirəcək monolit siyasi komandanın və müdrik siyasi liderin yetişdirilməsinin qayğısına qalmışdır. Yeri gəlmişkən, 1992-ci il noyabr ayının 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış Yeni Azərbaycan Partiyası fəaliyyətdə olduğu 26 il müddətində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı qismində çıxış etmiş, milli maraqları uca tutmaqla xalqın dərin etimadını qazanmış və regionun ən böyük siyasi təşkilatına çevrilmişdir. Heydər Əliyevin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr də onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Dövlət başçısı əsası ulu öndər tərəfindən qoyulan vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində daha da inkişaf etdirmiş, faktiki olaraq dönməz etmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi elmi cəhətdən əsaslandırılmış, məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkəmiz böyük uğurlar qazanmışdır. Dinamik inkişaf ictimai-sosial həyatın bütün sahələrini əhatə edir, sosial problemlər sürətlə həll edilir, insanların sosial rifahı daha da yüksəlir. Dünyanın qabaqcıl ölkələrinin maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı yüksələn xətlə inkişaf edir, dünya iqtisadiyyatına inteqrasiya prosesi uğurla davam etdirilir.

Prezident İlham Əliyev Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi daxili siyasətdə sosial ədalətin, xarici siyasətdə humanizmin tərəfdarı olsa da, milli maraqlar məsələsində kifayət qədər sərt mövqe və prinsipiallıq nümayiş etdirir, bir addım da geri çəkilmir. Möhtərəm Prezidentin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində tutduğu mövqe bariz nümunədir. Məlum xarici təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanın haqlı mövqeyini dünyanın ən yüksək tribunalarından elan edir və birmənalı olaraq qeyd edir ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verilməyəcəkdir, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı, qaçqınlar və məcburi köçkünlər öz tarixi torpaqlarına qayıtmalıdırlar.

Biz bu gün qürurla deyə bilərik ki, Azərbaycan Respublikası özünün yüksəliş dövrünü yaşayır. Ulu öndər Heydər Əliyev cismən aramızda olmasa da, təsəllimiz odur ki, onun ölməz ideyaları, xalqımıza ərməğan etdiyi müstəqil Azərbaycan Respublikası möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla addımlayır. Ölkədə demokratik dövlət quruculuğu prosesi qanunvericiliyimizə və beynəlxalq təcrübəyə uyğun olaraq uğurla davam etdirilir, bütün sahələrdə həyata keçirilən islahatlar xalqımızı daha genişmiqyaslı tərəqqiyə və inkişafa aparır. Ölkəmiz üçün böyük siyasi əhəmiyyət kəsb edən bütün nailiyyət və uğurlarımızın hər biri Heydər Əliyevin strateji kursunu yaradıcılıqla davam etdirən dövlət başçısının yorulmaq bilməyən ardıcıl, məqsədyönlü təşkilatçılıq və idarəçilik fəaliyyətinin nəticəsidir. Bu əzəmətli tərəqqi yoluna nəzər salarkən bir daha dərk edirsən ki, Heydər Əliyev uzaqgörənliyi ilə əsası qoyulmuş Azərbaycanın parlaq sabahı var.

**Elman ƏHMƏDOV,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

# Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Respublikasının demokratik inkişaf yolunda irəliləməsi, insan hüquq və azadlıqları ideyasının ölkəmizdə prioritet məsələyə çevrilməsi, cəmiyyətin müasirləşməsi və ictimai şüurda baş verən dəyişikliklər insan hüquqlarının müdafiəsi üzrə mexanizmlər sisteminin genişləndirilməsini, ənənəvi məhkəmə müdafiəsi mexanizmləri ilə müqayisədə daha çevik qeyri-məhkəmə müdafiə vasitələrinin yaradılmasını tələb edirdi. Bu çağırışlara cavab olaraq 2001-ci il 28 dekabr tarixli Qanunla Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı yaradılmışdır.

Bütün həyatını öz xalqına bəxş etmiş xalqımızın böyük oğlu Heydər Əliyevin dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ulu öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Müasir Azərbaycan dövlətinin qurulması prosesi, onun uğurlu inkişafı konsepsiyası kimi respublikamızda həyata keçirilən məhkəmə-hüquq islahatları məhz Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin adı ilə bağlıdır.

İnsan hüquq və azadlıqları, demokratik cəmiyyətdən söz düşəndə diqqət yetirilən ən vacib məqamlardan biri də söz və mətbuat azadlığı, onun necə təmin edilməsidir. Heydər Əliyev vətəndaşların azad şəkildə özünüifadəsinin yalnız inkişafa, tərəqqiyə, demokratiyaya xidmət etdiyini bildiyi üçün məhz bu məsələnin ölkənin ən ali qanununda əksini tapmasına xüsusi diqqət yetirib. Konstitusiyanın 47-ci maddəsi isə ölkəmizdə fikir və söz azadlığının təminatı məsələsini özündə ehtiva edir. Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı qazanması, təbii ki, ümummilli liderin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bu azadlıqları məhdudlaşdıran maneələr aradan qaldırıldı. 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Bu fərmanın bir bəndilə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi.

Bu gün biz ümummilli liderin bizə miras qoyduğu hüquqi, dünyəvi və demokratik Azərbaycan dövlətinin daha da güclənməsi üçün bir vətəndaş olaraq əlimizdən gələni etməli, insan hüquq və azadlıqlarının təminatı, müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi siyasətə dəstək nümayiş etdirməliyik.

Azərbaycanın müsir tarixini ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir.

Ümummilli liderin rəhbərliyi altında həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycan Respublikasında mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılmaqla demokratik, hüquqi və sivil dövlət qurulmuş, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik əldə edilməklə qanunun aliliyinə və insan hüquq və azadlıqlarına təminat verən vətəndaş cəmiyyəti formalaşmışdır. Bir sözlə, sadalanan məqamlar bir daha onu göstərir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycan Respublikasının hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri əvəzsizdir. Ulu öndərin strateji xətti 1993-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında, mühüm bir dövr olmaqla dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi. Cinayətkarlığa qarşı mübarizə sahəsində əldə edilmiş bütün müsbət nailiyyətlər qanunun aliliyi prinsipini fəaliyyətinin əsas devizinə çevirmiş ulu öndər Heydər Əliyevin ölkəmizdə həyata keçirdiyi məqsədyönlü hüquqi islahatların məntiqi nəticəsidir. Bu gün tam əsasla demək olar ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən mütərəqqi qanunlar, həyata keçirilən məqsədyönlü tədbirlər ölkəmizdə demokratik və hüquqi dövlətin möhkəm əsasını yaratmışdır. Ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvercilik və institusional islahatlar daha da genişləndirilməkdədir.

Bütün varlığı ilə Vətənə və xalqa candan bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Bugünkü sürətli və irimiqyaslı inkişafın təməlini Heydər Əliyev yaradıb. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq.

Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük və tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, sürətli inkişaf yoluna qədəm qoymuş Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçısını yetişdirmişdir. Belə ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində demokratik inkişaf və tərəqqi, sağlam vətəndaş cəmiyyətinin yaradılması, hüquqi dövlətin formalaşması prosesləri dönməz xarakter almış və görülmüş, eləcə də görüləcək bütün nəhəng və qlobal işlər ancaq bir məqsədə - Azərbaycanın dövlət müstəqilliyinin daha da gücləndirilməsinə xidmət etməklə, ulu öndərin təbirincə desək, onun suverenliyini sözün əsl mənasında, əbədi və daimi etmişdir.

Heydər Əliyev qürur hissi ilə deyərdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam...".

Bu gün Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı var. Qəlbi həmişə Azərbaycanla döyünən Heydər Əliyevin parlaq xatirəsi daim anılacaq və seviləcəkdir. Biz də hər birimiz ulu öndərə məhəbbətimizin əyani təzahürü olaraq möhtərəm Prezidentimizin ətrafında daha sıx birləşərək onun qarşıya qoyduğu bütün mühüm vəzifələrin yerinə yetirilməsində fəal iştirak etməli və Heydər Əliyevin şah əsəri olan demokratik, müasir və müstəqil Azərbaycanımızın xoşbəxt gələcəyi naminə səylə çalışmalıyıq. Böyük türk dünyasının görkəmli ictimai-siyasi və dövlət xadimi olan Heydər Əliyev Azərbaycan xalqının əvəzolunmaz və tarixi bir irsidir. Bu irsi öyrənərək ondan doğma vətənimiz Azərbaycanın rifahı naminə istifadə etmək isə hər bir vətəndaşın, öz torpağını və millətini sevən hər bir insanın mənəvi borcudur.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla irəliləyir. Zəngin dövlətçilik məktəbindən dərs alan, təcrübəli diplomat, Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada ən islahatçı dövlət başçılarından biri kimi qəbul edilir. Sevindirici haldır ki, ümummilli liderimizin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

**Elşad HƏSƏNOV,**
**Milli Məclisin deputatı.**

# Heydər Əliyev uğurlu iqtisadi strategiyanın banisidir

**Bəşəriyyət tarixində Heydər Əliyev kimi nadir insanlar bütöv bir salnamə, tarix yaratmağa qadir şəxsiyyətlərdir. Ulu öndərimizin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti Vətən və xalq qarşısındakı misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixi gedişatda həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir.**

Azərbaycan tarixində silinməz iz buraxmış ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq böyük quruculuq illəri, ölkəmizin hərtərəfli və sürətli tərəqqi məhrələsi kimi xarakterizə olunur. Vətənimizin müasir tarixinə nəzər salarkən əminliklə söyləyə bilərik ki, ölkənin və xalqın ən çətin anlarında Heydər Əliyev rəhbərliyinə böyük ehtiyac duyulub. Üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirən ümummilli liderimiz hər zaman ona bəslənilən ümidləri layiqincə doğrulda bilib.

Zəngin dövlətçilik təcrübəsinə, yüksək xarizmatik liderlik keyfiyyətlərinə malik ulu öndər dünyanın nadir şəxsiyyətləri sırasında özünə şərəfli və əbədi yer tutub. O, müasir bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşda hakimiyyət zirvəsinə yüksəlməyə nail olmuş, ömrünün sonuna kimi siyasi mübarizədə yenilməz zəfərlər qazanan sərkərdə kimi tanınmışdır. Azərbaycanın bir dövlət kimi imzasını imzalar içərisində tanıdan bu uzaqgörən siyasi xadimin zamanında atdığı addımların nə qədər gərəkli olduğunu bu gün daha dərindən dərk edir, əhəmiyyətini və nəticələrini gündəlik həyatımızda görürük. Bir sözlə, ulu öndər bu ölkənin qurulmasının, yaradılmasının, sabitliyinin, firavanlığının müəllifidir, ən başlıcası Azərbaycanın bir ölkə kimi dünya xəritəsindən silinməsinin qarşısını alan xilaskardır!

Ulu öndərin Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsində böyük xidmətləri olmuşdur. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə iqtisadiyyat sahəsində artan kadr ehtiyacını təmin etmək məqsədilə təhsilə xüsusi önəm vermişdir. Məhz onun yorulmaz və gərgin əməyi nəticəsində ölkədə kənd məktəblərinin maddi-texniki bazası ciddi şəkildə yaxşılaşmış, nəticədə iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur.

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı o dövrdə respublikadakı dərin sosial-iqtisadi böhranı, ölkənin parçalanması və müstəqilliyinin itirilməsinə yönəlmiş proseslərin qarşısının alınmasında həlledici rol oynadı. Qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi sabitləşdirmə proqramı həyata keçirildi. Ölkədə maliyyə və iqtisadi sabitlik əldə edildi. Heydər Əliyevin sonrakı dövrdə bu sahədəki fəaliyyətinin əsas istiqamətləri siyasi-iqtisadi, o cümlədən də aqrar islahatların aparılması, bazar iqtisadiyyatının formalaşdırılması, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası və inkişafın təmin edilməsi olmuşdur. Ulu öndər bu haqda fikirlərini belə ifadə etmişdir: **"Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yoldur, istiqamətlərdir".**

Heydər Əliyevin iqtisadi strategiyasının mühüm elementi, heç şübhəsiz ki, neft strategiyasıdır. Ümummilli lider o dövrdə neft amilindən Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin təmin edilməsi, həmçinin gələcək iqtisadi inkişafının real zəminin yaradılması istiqamətlərində çox böyük ustalıqla istifadə etmişdir.

Vurğulamaq lazımdır ki, bu gün əsası müdrik strateq Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycanın tərəqqisi üçün aktual və müasir olan inkişaf strategiyası onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu alternativsiz kurs sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlət kimi öz mövqeyini qoruyub saxlayır.

**Əlibala MƏHƏRRƏMZADƏ,**
**"Kaspian Audit Kompaniy" şirkətinin direktoru, iqtisad elmləri doktoru, professor.**

# Fövqəladə hallar naziri İmişlidə dörd rayonun vətəndaşlarını qəbul edib

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dekabrın 7-də İmişli şəhərində Sabirabad, Saatlı, Hacıqabul və İmişli rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, fövqəladə hallar naziri tərəfindən qəbul edilən 14 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Bundan başqa, kadr məsələləri ilə bağlı 34, digər məsələlərlə bağlı müraciət etmiş 45 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

AZƏRTAC



# Gənclər və idman naziri Biləsuvarda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov dekabrın 7-də Biləsuvarda vətəndaşları qəbul edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Gənclər evində keçirilən qəbulda Ağcabədi, Beyləqan, Biləsuvar və İmişli rayonlarından 30-a yaxın vətəndaşın gənclər, idman və digər sahələrlə bağlı müraciətləri dinlənilib.

Gənclər sahəsi üzrə müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılmasına dəstək göstərilməsi, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin sayının artırılması, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi, fəaliyyəti və s. məsələləri əhatə edib.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

AZƏRTAC

# Serbiya Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib

**Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Serbiya Prezidenti Aleksandr Vuçiç 2018-ci ilin mayında Azərbaycana səfərini məmnunluqla xatırlayıb və salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib. Serbiya Prezidenti ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini, Serbiyanın Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayıb.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkür edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Serbiya Respublikasının Prezidentinə çatdırıb, Azərbaycan-Serbiya əlaqələrinin strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, ölkəmizin əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Görüşdə Azərbaycan-Serbiya əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf etdiyi qeyd olunub, iqtisadi-ticarət, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, tranzit, infrastruktur, turizm, İKT, səhiyyə və digər sahələrdə Azərbaycan-Serbiya əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Polşada "Azərbaycan Ticarət Evi" açılıb

**Polşada "Azərbaycan Ticarət Evi" açılıb.**

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.

AZƏRTAC xəbər verir ki, dekabrın 6-da Polşanın paytaxtı Varşavada "Azərbaycan Ticarət Evi"nin açılış mərəsimi keçirilib. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış "Azərbaycan Ticarət Evi" "Made in Azerbaijan" brendinin Polşa bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın Polşada satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcək.

"Ticarət Evi"ndə Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi məhsullar, o cümlədən spirtli içkilər, quru meyvələr, nar, fındıq, çay, mürəbbə, meyvə suları, mineral sular, kosmetik məhsullar və s. nümayiş olunur.

"Azərbaycan Ticarət Evi"nin fəaliyyətə başlaması ilə əlaqədar təşkil olunmuş tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Polşanın rəsmi şəxsləri və iş adamları iştirak ediblər.



Tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Polşada "Azərbaycan Ticarət Evi"nin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Polşada Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb. Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi də məhz 2017-ci ildə Polşada təyin olunub. Qeyd olunub ki, strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Polşa əlaqələri uğurla inkişaf edir. Polşanın paytaxtı Varşavada "Azərbaycan Ticarət Evi"nin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə öz töhfəsini verəcək.

Azərbaycan və Polşa arasında ticarət əlaqələrinin inkişafını vurğulayan Şahin Mustafayev qeyd edib ki, bu ilin 9 ayı ərzində ölkələrimiz arasında ticarət dövriyyəsi 57 faiz artıb. İndiyədək Polşa Azərbaycana 20 milyon dollardan çox, Azərbaycan isə Polşaya 6,5 milyon dollar investisiya yatırıb. Hazırda Azərbaycanda xidmət, sənaye və ticarət sahələrində 21 Polşa şirkəti fəaliyyət göstərir.

Əməkdaşlığın inkişafı perspektivlərindən danışan iqtisadiyyat naziri ölkələrimiz arasında sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, turizm və digər sahələrdə böyük potensialı diqqətə çatdırıb.

Polşanın sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviç və xarici işlər nazirinin müavini Maciej Lang Varşavada "Azərbaycan Ticarət Evi"nin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüblər.

Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov Polşada "Azərbaycan Ticarət Evi"nin iqtisadi əlaqələrin genişlənməsində önəmini qeyd edib, iş adamlarını bu imkandan yararlanmağa dəvət edib.

Sonra tədbir iştirakçıları "Azərbaycan Ticarət Evi" və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar.

Tədbir çərçivəsində "Azərbaycan Ticarət Evi" ilə Polşanın "STX ONE" şirkəti arasında fındıq və nar şirəsi konsentratının satışına dair Anlaşma Memorandumu imzalanıb.

Polşaya səfəri çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayev Polşanın sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviçlə görüşüb. Görüşdə Şahin Mustafayev Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verib, polşalı sahibkarları bu imkanlardan yararlanmağa dəvət edib. Polşanın Sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviç Polşanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayaraq, əməkdaşlıq perspektivləri barədə fikirlərini bölüşüb.

AZƏRTAC

# "Bakutel-2018" bir sıra yeniliklərlə yadda qaldı

**Bakı Ekspo Mərkəzində keçirilən XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi-Konfransı "Bakutel-2018" başa çatıb.**



AZƏRTAC xəbər verir ki, "Bakutel-2018" sərgisi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı (İTU), Regional Rabitə Birliyi (RRB), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilib. Sərginin təşkilatçısı qismində "Caspian Event Organisers" şirkəti, baş sponsoru qismində müntəzəm iştirakçısı olan "Azercell Telecom" çıxış edib.

Bu il sərginin fəxri qonaqları arasında Rusiya, Türkiyə, Belarus, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, İran, Özbəkistan, Latviya, Bolqarıstanın İKT sahəsi üzrə nazirləri və yüksək rütbəli nümayəndələri yer alıb.

Dekabrın 4-dən 7-dək keçirilən sərgidə 20 ölkədən 230 şirkət qatılıb və sərgidə şirkətlər öz maraqlı, diqqəti cəlb edən stendləri ilə yadda qalıb. İştirakçıların arasında İKT şirkətləri, mobil operatorlar, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları, tanınmış brendlərin distribüterləri və gənc ixtiraçılar olub. Həmçinin sərgi çərçivəsində bir sıra yeniliklər nümayiş olunub, konfranslar, tədbirlər keçirilib.

Sərginin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə "Bakutel" sərgisinin fəaliyyəti, sərginin İKT sahəsinə verdiyi töhfələr və yaratdığı imkanlardan bəhs edib.

Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) MDB ölkələri üzrə regional bölməsinin rəhbəri Kirill Oparin və Caspian Event Organisers" şirkətinin direktoru Edvard Stron sərginin işinə uğurlar arzu edib.

Dekabrın 4-də Bakı Ekspo Mərkəzinə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva "Bakutel-2018" sərgisi ilə tanış olublar.

Sərgidə 10 ölkə - ABŞ, Türkiyə, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, Polşa, Xorvatiya, İran, Sloveniya milli pavilyonla təmsil olunub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeli qurum və müəssisələri eyni milli pavilyonda məhsul və xidmətlərini, həyata keçirdiyi layihələri təqdim edib. Pavilyonda telekommunikasiya, poçt, yüksək texnologiyalar, o cümlədən nanotexnologiyalar, "Elektron imza" infrastrukturu, "Data Mərkəzi"n "bulud" texnologiyası əsasında xidmətləri üzrə həyata keçirilən layihələr və əldə edilmiş ən son nailiyyətlər, eləcə də nazirlik tərəfindən dəstək alan bir sıra startap layihələr nümayiş olunub. Həmçinin kompleksin ikinci zalındakı ayrıca stenddə e-ticarət ("e-commerce") müəssisələri fəaliyyət göstərib.

Sərginin keçirildiyi günlərdə Azərbaycanda poçt rabitəsinin 200 illik yubileyinə həsr olunmuş muzey fəaliyyət göstərib. Burada poçt tarixinə aid eksponatlar, məktublar, teleqramlar, rabitə qurğuları, komutator telefonları, "Morze" əlifbası, sahənin dövrlər üzrə rəsmi sənədləri, poçt və rabitə işçisinin geyim formaları, istifadə etdiyi əşyalar, bağlama, məktub, kiçik paketlər və banderol nümunələri nümayiş olunub. Eyni zamanda, II Dünya müharibəsi illərinə aid poçt göndərişləri, əsgər məktubları, poçt qutuları, ötən əsrin 70-80-ci illərinə təsadüf edən poçt nümunələri sərgilənib. Həmçinin ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə poçt sahəsinin inkişafını xarakterizə edən xüsusi güşə fəaliyyət göstərib. "Azərpoçt" MMC-nin stendində sərginin bütün iştirakçıları üçün hədiyyəli lotereya keçirilib.

Tədbirin ikinci iş günü eksponentlərin iştirakı ilə keçiriləcək axşam ziyafəti çərçivəsində Azərbaycanın informasiya və telekommunikasiya texnologiyaları sahəsində çalışan ən uğurlu qadınlara "AWİTA 2018" "Azerbaijan - The Women in İT Award" mükafatının təqdimetmə mərasimi olub.

Bu il təşkilatçılar sərgi çərçivəsində ilk dəfə olaraq yeni müzakirə platforması "Bakutel Tech Talks" proqramını da təşkil edib. "Bakutel Tech Talks" tədbiri bir sıra faydalı məlumatlar və qeyri-adi məzmunu ilə auditoriyanın diqqətini cəlb edib. "Bizimkilər" adlı sessiya keçirilib. Sessiyanın adını şərtləndirən amil dünyaca məşhur olan xarici İT şirkətlərində çalışan həmvətənlərimizin spikerlər qismində çıxış etməsidir. "Bizimkilər" sessiyasının məqsədi tədbirə toplaşan auditoriyanı nəhəng beynəlxalq İT şirkətlərinin təcrübəsi, eləcə də sənaye yenilikləri və istehsal sirləri ilə tanış etmək olub.

"Bakutel Tech Talks" proqramı "Baxış bucağınızı bizimlə İT-iləyin" şüarı altında panel müzakirələri, sonra isə öz işini "Startapdan böyük biznesə" sessiyası ilə davam etdirib. Startap və gənc iş adamlarının dəvət olunduğu bu sessiyada təcrübəli məruzəçilər dinləyiciləri istənilən ideyanı reallaşdırmağın mümkün olduğuna əmin etməyə çalışıb. Beləliklə, "Tech Talks" proqramında sənayenin ən aktual məsələlərinə toxunulub və tədbir ideya rəhbərləri ilə müzakirələr üçün müasir təmayüllü platformaya çevrilib. Bundan sonra hər il sərgi çərçivəsində "Tech Talks" proqramının keçirilməsi planlaşdırılır.

Bu il "Bakutel-2018" sərgisində təqdim olunan yeniliklərdən biri də alman alimlərinin ixtirası olan ultramodern texnologiyası əsaslı "RoboKeeper"dir. "RoboKeeper" - dünyanın ən sürətli qapıçısı hesab edilir.

Sərgidə iştirak edən bir sıra qurumlar - Bakı Beynəlxalq Avtovağzalı Kompleksi, Azərbaycan Dövlət Reklam Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Dövlət Reklam Agentliyi, "Azərpoçt" MMC və digər qurumlar bir sıra yenilikləri təqdim edib, öz stendləri ilə ziyarətçilərin maraqlarına səbəb olub.

Ənənəvi olaraq hər il keçirilən "Bakutel" sərgisinin media tərəfdaşı olan AZƏRTAC da sərgidə öz stendi ilə təmsil olunub. AZƏRTAC-ın ekspozisiyasındakı nəşrlər, multimedia məhsulları, informasiyanın istehsalı və yayılması sahəsində texniki imkanları sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

"Bakutel-2018" sərgisinin ziyarətçiləri sırasında Bakı şəhərində yerləşən 2 və 3 saylı uşaq evlərinin sakinləri də yer alıb. 60-dan çox oğlan və qız sərgidə təmsil olunan pavilyon və stendləri ziyarət edib.

Qeyd edək ki, sərgi çərçivəsində bir sıra sənədlər imzalanıb və konfranslar keçirilib. Belə ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və sərginin təşkilatçıları olan "İteca Caspian" və "Caspian Event Organisers" şirkətləri arasında birgə əməkdaşlığa dair Anlaşma Memorandumu, "Azərpoçt" MMC ilə "Rusiya Poçtu" arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Bu il sərginin işgüzar proqramı da yenilənərək daha dolğun olub. Proqramın açılışı Regional Rabitə Birliyinin Rabitə Administrasiyaları Rəhbərləri Şurasının 54-cü toplantısı ilə baş tutub. Bunun ardınca Azərbaycan, İran, Rusiya və Türkiyənin İKT nazirlərinin dördtərəfli görüşü keçirilib. Həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin İKT nazirlərinin yüksək səviyyəli görüşü olub. Daha sonra estafeti "Davamlı inkişaf üçün rəqəmsal əməkdaşlıq" mövzusuna həsr olunmuş Birinci Xəzər İnnovasiya Konfransı qəbul edib. Belarus-Azərbaycan 4-cü İKT Forumu da sərgi çərçivəsində baş tutub.

Qeyd edək ki, Xəzər İnnovasiya Konfransı "Bakutel-2018" sərgisi çərçivəsində ilk dəfə keçirilib. Konfransın keçirilməsinin təşəbbüskarı Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Tədbir "Genişzolaqlı rabitə", "Süni intellekt", "Əşyaların İnterneti", "Elektron xidmətlər", "İKT yönlü startaplar və innovativ sahibkarlıq", "Dördüncü sənaye inqilabı", "Elm tutumlu istehsal" və "Kiberhazırlıq" kimi mövzuları əhatə edib. Birinci Xəzər İnnovasiya Konfransı hökumət nümayəndələri, sənaye liderləri, tənzimləyici struktur və beynəlxalq təşkilatların rəsmi təmsilçilərini, o cümlədən nəhəng regional telekommunikasiya və peyk operatorlarının rəhbərlərini bir araya gətirib. Gələcəkdə bu konfransın beynəlxalq "Bakutel" sərgisi çərçivəsində hər il keçirilməsi nəzərdə tutulub.

AZƏRTAC

*Elmar Məmmədyarov:*

# Bakı-Tbilisi-Qars Avropa-Asiya dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək

Ötən illər ərzində Azərbaycan qeyri-neft sektorunun, xüsusilə də ölkədə biznes və sərmayə mühitinin inkişafı və nəqliyyat infrastrukturlarının inşası və buraya sərmayə qoyulması istiqamətində nəzərə çarpacaq addımlar atıb. Lakin bizim səylərimiz yalnız Azərbaycanla məhdudlaşmır. Azərbaycan Hökumətinin əsas prioritetləri arasında Şərq-Qərb və Şimal-Cənub oxları boyunca qonşu ölkələr və ATƏT-ə üzv olan digər maraqlı dövlətlər ilə əməkdaşlıqda regional, trans-regional və çoxmodullu nəqliyyat dəhlizlərinin inkişafı yer alır. Artan bağlılığa töhfə verən layihələr arasında ilkin mərhələdə 6-7 milyon ton, daha sonra isə ildə 17 milyon ton yükgötürmə qabiliyyəti olan Bakı-Tbilisi-Qars dəmir yolu var. Yeni İpək Yolu adlanan Bakı-Tbilisi-Qars trans-Avropa və trans-Asiya dəmir yolu şəbəkələrini birləşdirəcək, eləcə də Avropa və Asiya arasında etibarlı və inteqrasiya olunmuş dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək yeni yaranmış qitələrarası dəhlizin əsas seqmentidir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov "ATƏT məkanında iqtisadi bağlılığın təşviq edilməsi" tədbirində çıxışı zamanı deyib.

Nazir deyib: "Şübhəsiz ki, bağlılıq əməkdaşlığımızın və dayanıqlı iqtisadi artımın möhkəmlənməsinə töhfə verə bilir. ATƏT-in Nazirlər Şurasının 2016-cı il tarixli Hamburq Sammitinin bağlılığın təşviq edilməsi və yaxşı idarəetmənin möhkəmləndirilməsi ilə bağlı qərarı, eləcə də ATƏT-in əvvəlki bütün müvafiq sənədləri və qərarları bu istiqamətdə əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir.

Ticarətin davamlı şəkildə artan həcmini nəzərə alaraq, aydındır ki, bir-biri ilə rəqabətdə olmayan, lakin bir-birini tamamlayan etibarlı ticarət marşrutlarının müxtəlifliyi olmalıdır".

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Hökumətinin başqa bir prioritet sahəsi tranzit və ticarətdə daha şəffaf gömrük proseslərinə imkan verən səmərəli ticarət qaydalarını təqdim etmək, idxal, ixrac və tranzit sərhəd prosedurlarının səmərəliləşdirilməsi də daxil olmaqla nəqliyyat və ticarətin asanlaşdırılmasında yaxşı idarəetmədir. Ticarətin asanlaşdırılmasında elektron imza prinsipinə əsaslanan elektron bəyannamə sistemi kimi informasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət ayrılır.

"Xüsusilə qeyd etmək istədiyim bir sahə Yeni Bakı Limanı ətrafında Azad Ticarət Zonasının yaradılması vasitəsilə ticarət-logistika sektorunda xarici şirkətlər üçün əlverişli və azad sərmayə rejiminin təmin edilməsi üzrə səylərimizdir. Bu Azad İqtisadi Zonanın məqsədi Azərbaycanın çoxsaylı ticarət yolları üzrə Avropa və Asiya arasında ticarəti asanlaşdıracaq regional ticarət-logistika mərkəzi kimi cəlbediciliyinin artırılmasıdır.

İcra üçün artıq hazır olan, Azərbaycanı və Mərkəzi Asiyadakı tərəfdaşlarımızı, habelə potensial olaraq Əfqanıstanı da əhatə edəcək "Xəzər dənizi regionunda bağlılığın və yaşıl limanların təşviqi" adlı ATƏT-in büdcədənkənar layihəsi Avropa və Asiya arasında bağlılığı daha da gücləndirəcəkdir. Fürsətdən istifadə edərək, bu mühüm layihəni ərsəyə gətirdiyi üçün ATƏT-in iqtisadi və ətraf mühit fəaliyyətləri üzrə əlaqələndiricisi səfir Vuk Zuqiç və onun komandasına təşəkkür edirəm və ATƏT-in üzv dövlətlərini bunun reallaşmasına töhfə verməyə çağırıram", - deyə nazir vurğulayıb.

AZƏRTAC

# Moskvada MDB İqtisadi Şurasının növbəti iclası keçirilib

**Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 80-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.

İclas iştirakçıları əmtəə və xidmətlərin azad mübadiləsi haqqında Saziş layihəsi üzərində işi fəallaşdırmaq, ona "İnvestisiyalar" fəslini əlavə etmək barədə qərar qəbul ediblər, "MDB-nin iştirakçısı olan dövlətlərdə rəqabətli siyasətin formalaşdırılması" mövzusunda məruzəni müzakirə ediblər və tövsiyə ediblər ki, MDB ölkələrinin əlaqədar nazirlik və idarələri onun müddəalarını nəzərə alsınlar.

2020-ci ilə qədər olan dövrdə Dövlətlərarası İnnovasiya Əməkdaşlığı Proqramı çərçivəsində innovativ fəaliyyətin monitorinq sistemi haqqında Əsasnamə və innovasiyaların kommersiyalaşdırılması mərkəzləri şəbəkəsinin yaradılması haqqında Əsasnamə də təsdiq edilib.

İclas iştirakçıları dəmir yolu nəqliyyatında razılaşdırılmış tarif siyasətinin müəyyən edilməsi Konsepsiyası və 2018-ci fraxt ili üçün dəmir yollarının tarif siyasəti haqqında MDB Hökumət Başçıları Şurasının qərarının yerinə yetirilməsi barədə informasiyanı müzakirə ediblər, malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol layihəsini bəyəniblər.

İclasda 2018-ci ildə Tacikistan Respublikasının MDB-yə sədrliyinin iqtisadi gündəliyinə yekun vurulub. İqtisadi Şura üzvlərinə 2019-cu ildə MDB-yə Türkmənistanın sədrliyi Konsepsiyası təqdim edilib.

Bundan əlavə, bir sıra büdcə-maliyyə və təşkilati məsələlər müzakirə olunub.

MDB İqtisadi Şurasının növbəti iclası 2019-cu il martın 15-də Moskvada keçiriləcək.

AZƏRTAC

# Mədəniyyət naziri Ceyhun Hacıbəylinin Bakıda səfərdə olan varisləri ilə görüşüb

**Mədəniyyət naziri Əbülfəs Qarayev görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Ceyhun Hacıbəylinin Bakıda səfərdə olan varisləri Paskal Hacıbəyli Buşe və Benjamin Hacıbəyli ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Ə.Qarayev dahi bəstəkar Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətindəki xüsusi yerindən danışıb və onun adı ilə bağlı keçirilən beynəlxalq festival, konfrans və tədbirlərlə bağlı qonaqlara məlumat verib.



Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin silsilə tədbirlərlə qeyd edildiyi haqqında danışan nazir görkəmli ictimai-siyasi xadim Ceyhun Hacıbəylinin bu sahədəki xidmətlərini xüsusi vurğulayıb. Eyni zamanda, nazir, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Ceyhun Hacıbəylinin 125 illik yubileyi şərəfinə Azərbaycan Dövlət Musiqili Teatrında nümayiş olunan "Nuri-didə Ceyhun" pyesi haqqında məlumat verib. Qeyd edib ki, Ceyhun Hacıbəyli obrazının canlandırıldığı bu tamaşa onun məşəqqətli mühacirət həyatından və Cümhuriyyətimizin keçdiyi çətin, lakin şərəfli mübarizə yolundan bəhs edir.

Ceyhun Hacıbəylinin həyat yoldaşı Paskal Hacıbəyli Buşe səmimi qəbula görə nazir Əbülfəs Qarayevə təşəkkürünü bildirərək məmnunluğunu ifadə edib.

AZƏRTAC

*Hikmət HACIYEV:*

# MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi

*Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı və tədbirin əhəmiyyəti barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.*



**–Dekabrın 6-da MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində qeyri-rəsmi Zirvə toplantısı keçirildi. Prezident İlham Əliyev Zirvə toplantısında iştirak etdi. Bu tədbirin əhəmiyyəti və müzakirə olunan məsələlər barədə nə deyərdiniz?**

–Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə dekabrın 6-da Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirak edib. Keçən il isə MDB dövlətlərinin qeyri-rəsmi Zirvə toplantısı Moskvada keçirilib. Bu qəbildən olan zirvə toplantılarında MDB çərçivəsində il ərzində görülən işlər barədə geniş fikir mübadiləsi aparılır və gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Bu dəfə də keçirilən qeyri-rəsmi Zirvə toplantısı əsnasında eyni məqsədlər güdülürdü. MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü də işgüzar və səmimi şəraitdə keçdi, dövlət başçıları birlikdə nahar etdilər və sonra Mariinski Teatrında "Şelkunçik" balet tamaşasına baxdılar. Bir məqama da toxunmaq istərdim ki, tamaşa zamanı Prezident İlham Əliyev tədbirə ev sahibliyi edən Prezident Vladimir Putinin yanında sağda əyləşmişdi. Bu, dövlətimizin başçısına və onun şəxsiyyətinə xüsusi hörmətin və ehtiramın əlamətidir.

Zirvə görüşündə Prezident İlham Əliyevin tədbirdə iştirak edən bütün dövlət başçıları ilə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında məzmunlu söhbəti və müzakirələri oldu.

**–Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də müzakirələr aparıldımı?**

–Bəli. Tədbir əsnasında Prezident İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də söhbəti oldu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparıldı. Nəzərə almaq lazımdır ki, bu iki amil bir-biri ilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayacaq şəkildə davam etdirilməlidir. Son dövrlərdə qoşunların təmas xətti və dövlət sərhədi boyunca nisbi sakitlik mövcuddur. Bu da münaqişənin həlli üzrə substantiv və intensiv danışıqların aparılması üçün yaxşı fon yaradır. Bu, əsla münaqişənin dondurulması və ya qəbuledilməz olan status-kvonun saxlanması anlamına gəlməməlidir. Qəti mövqeyimiz ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də dövlət başçıları səviyyəsində status-kvonun dəyişdirilməsinin vacibliyini dəfələrlə vurğulayıblar. Münaqişənin həlli üzrə danışıqlar nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır.

Eyni zamanda, söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olundu.

**–Azərbaycanın bu məsələdə humanist xarakter daşıyan və "hamının hamıya" prinsipinə söykənən mövqeyinə Ermənistanın münasibəti necədir?**

–Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı və o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir və ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır.

Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi və Azərbaycana qaytarılması məsələsini dövlətimizin başçısı ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və digər tərəfmüqabilləri ilə görüşlərdə hər dəfə qaldırır.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlətimizin başçısı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün böyük səylər göstərir və bu məsələni daim diqqətdə saxlayır.

**–Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan iki ölkə arasında rabitənin yaradılması barədə danışır. Bu barədə nə deyərdiniz?**

–Düşənbədə dövlətimizin başçısı ilə Ermənistanın baş naziri arasında olan söhbət əsnasında razılıq əldə edilmişdi ki, zəruri hallarda əlaqə yaratmaq üçün imkanlar təmin edilsin. Bu əlaqələr müntəzəm xarakter daşımır, dövlət başçıları, xarici işlər və ya müdafiə nazirləri səviyyəsində olan təmaslar deyil, aşağı səviyyədə və lazım olan hallarda həyata keçirilir.

**–Kütləvi informasiya vasitələrində verilən məlumata görə, Belarus Prezidenti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının növbəti baş katibinin Belarusdan olacağını bildirib. Ermənistan tərəfi isə bunu təkzib edərək fərqli fikir səsləndirib. Bu barədə nə demək olar?**

–Sözügedən məsələ ilə bağlı biz də kütləvi informasiya vasitələrindən məlumat almışıq. Kuluarlarda gedən söhbətlər onu deməyə əsas verir ki, MDB ölkələrinin qeyri-rəsmi Zirvə görüşündən əvvəl Avrasiya İqtisadi İttifaqının Sammitində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi məsələsi müzakirə olunub. Çox dərinə getmək istəməzdim, amma bəzi mənbələrdən aldığımız məlumata görə KTMT-nin baş katibi məsələsi ilə bağlı iclasda gərgin vəziyyət yaranıb. Bizdə olan məlumata əsasən tam əminliklə deyə bilərik ki, Ermənistan KTMT-nin baş katibi vəzifəsini itirib və Ermənistanın rəyi və fikri nəzərə alınmadan böyük ehtimalla yaxın gələcəkdə bu vəzifəyə Belarusun nümayəndəsi təyin olunacaq. Ermənistanın baş katib vəzifəsini özündə saxlamaqla bağlı bütün səyləri iflasa uğrayıb. Bu, ümumilikdə, Ermənistanın siyasəti və diplomatiyasının növbəti məğlubiyyətidir.

**–Hadisələrin bu məcrada inkişafını Azərbaycanın növbəti qələbəsi kimi qəbul etmək olarmı?**

–Bildiyiniz kimi, Azərbaycan KTMT-nin üzvü deyil və ölkəmiz təşkilat daxilində gedən proseslərə müdaxilə etmək fikrində deyil. Prezident İlham Əliyevin bu ilin noyabrında Belarusa səfərindən öncə bu ölkənin səfirini qəbul edərkən səsləndirdiyi fikirlərə istinad etmək istərdim. Dövlətimizin başçısı bildirmişdi: "Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir". Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək üçün KTMT-nin arxasında gizlənməyə çalışır. Ermənistanın üzləşdiyi aprel məğlubiyyətinin təcrübəsi də bunu göstərdi.

Heç kimə sirr deyil ki, yeni baş katibin təyinatı məsələsini Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, KTMT-yə üzv olan bütün ölkələrin dövlət başçıları ilə bu və ya digər formada müzakirə edib.

Sözsüz ki, işğalçı dövlət olaraq, Ermənistanın çoxsaylı xarakter daşıyan hər bir siyasi, diplomatik, iqtisadi və digər müstəvilərdə olan məğlubiyyəti Azərbaycanın qələbəsi kimi dəyərləndirilə bilər. Çünki bu məğlubiyyətlərin şərtləndirilməsində Azərbaycanın rolu kifayət qədər böyükdür. Nəticə etibarilə, Ermənistanın tamhüquqlu üzv olduğu KTMT-də növbəti dəfə alçaldıcı məğlubiyyəti bu sıradan olan nümunələrdən biridir.

Prezident İlham Əliyev bəzilərinin deklarativ deyil, dərin strateji düşüncə və praqmatik baxışlar əsasında yüksək məharətlə və müdrikliklə "strateji diplomatiya" adlandırılan siyasət yürütmək iqtidarında olan şəxsiyyətdir. Bu "strateji diplomatiya" Azərbaycanın qələbəsini təmin edir, milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir.

AZƏRTAC

# Azərbaycanın xarici işlər naziri ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

**Milanda ATƏT Nazirlər Şurasının 25-ci iclasında iştirak edən xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezir ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ATƏT-in ifadə və media azadlığı üzrə öhdəlikləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər əsas danışıq mövzusu olub. ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə ölkəmiz arasında mövcud əməkdaşlıq münasibətlərinin perspektivləri üzrə fikir mübadiləsi aparılıb və bu istiqamətdə atıla biləcək mümkün addımlar müzakirə olunub.

Tərəflər arasında, həmçinin yeni texnologiya vasitələrinin media və ifadə azadlığı üzrə inkişafa təsiri ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanda media və ifadə azadlığı üzrə inkişafa toxunan nazir Elmar Məmmədyarov ölkə əhalisinin 80 faizinin internet istifadəçisi olduğunu vurğulayıb.

AZƏRTAC

# "Kardeş kalemler" jurnalı noyabr nömrəsini görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr edib

**Türkiyədə nəşr olunan "Kardeş kalemler" aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib.**




AZƏRTAC xəbər verir ki, jurnalın bu nömrəsi Avrasiya Yazarlar Birliyi və "Buta" Azərbaycan mədəniyyətini yayma və yaşatma dərnəyinin ortaq layihəsi olaraq hazırlanıb. Jurnalda akademik Nizami Cəfərovun "Mir Cəlal və dünya xalqları", professor Təyyar Salamoğlunun "Bir gəncin manifesti" esse romanı", yazıçı-şair İftixar Piriyevin "Mir Cəlalın manifesti", filologiya elmləri doktorları Almaz Ülvinin "Mir Cəlal: bir yarpaq söz", Vaqif Yusiflinin "Mir Cəlal həqiqətləri", Dünya Gənc Türk Yazıçılar Birliyi məsləhət Şurasının rəhbəri Əkbər Qoşalının "Mir Cəlal Paşayev", gənc tədqiqatçı Şahanə Muşfiqin "Həcv və satira janrında iki usta isim: Mir Cəlal və Əziz Nesin" məqalələri yer alıb. Bundan başqa, yazıçının "Dostumun qonaqpərvərliyi" və "Nazik mətləb" hekayələri Oktay Hacımusanın tərcüməsində türkdilli oxuculara təqdim olunub.







Məqalələrdə Mir Cəlal Paşayevin zəngin yaradıcılıq yolu ətraflı təhlil olunur, ədibin böyük ədəbi ustalıqla qələmə aldığı əsərlərin mahiyyətindən bəhs edilir. Tədqiqatçılar əsaslandırırlar ki, Mir Cəlal Paşayev əsərləri bütün dövrlərdə cəlbedici olmuş, geniş oxucu auditoriyasına sahib çıxa bilmişdir.

Nəfis tərtibatda oxucuların görüşünə gələn jurnalda görkəmli ədibin həyatını əks etdirən maraqlı fotolara da yer ayrılıb.

AZƏRTAC

# Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib




**Dekabrın 2-7-də Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) IV qurultayı keçirilib. Qurultayın son günü BHİK-in rəhbər orqanlarına seçkilər keçirilib.**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, qurultayda iştirak edən Azərbaycan həmkarlar ittifaqlarının nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib.

Qeyd edək ki, qurultayın gedişində Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun ingilis dilində çap olunan "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" kitabı Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən iştirakçılara paylanıb.




AZƏRTAC

# Bakıda "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib





**Dekabrın 7-də Bakıda Azərbaycan Respublikası ombudsmanının təşkilatçılığı ilə "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova beynəlxalq konfransın Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr olunduğunu söyləyib.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsində görülən işlərdən danışan müvəkkil qeyd edib ki, Ombudsman Aparatı insanların hüquq və azadlıqlarının qorunması istiqamətində BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar ilə əməkdaşlıq şəraitində çalışır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 64 əfv sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib və bunlar on minlərlə insana şamil olunub. Dövlətimizin ali məqsədinin insan hüquqlarının müdafiəsi olduğunu deyən ombudsman vurğulayıb ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs ölkədə dayanıqlı inkişafa, insanların həyat səviyyəsinin yüksəlməsinə, hüquq bərabərliyinin təmininə imkan yaradıb. Ölkəmizdə hüquqla bağlı çoxsaylı qanunvericilik aktları qəbul olunub. Bu gün özlərini demokratiyanın bəşiyi hesab edən ölkələrdə ksenofobiya, dini, irqi ayrı-seçkilik halları baş versə də, Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri bərabər şəkildə yaşayırlar.

Milli Məclisin sədr müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd edib ki, bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsini təmin edən çox mükəmməl qanunvericilik bazası var. Azərbaycanın qanunvericilik bazası insanların hüquqlarının bərabər şəkildə təmin edilməsini gerçəkləşdirən mühit formalaşdırır. Bugünkü nailiyyətlər bu uğurların əldə edilməsinə töhfə verən Azərbaycan vətəndaşlarının iştirakı ilə əldə olunub. Xalqın mütləq dəstəyi olmadan hər hansı ideyanı gerçəkləşdirmək qeyri-mümkündür. Bu gün insan hüquqlarının təminindən, ədalətdən danışılır. Müstəqil dövlət olmasa və insan hüquqlarının təmini üçün lazım olan şərait yaradılmasa, bütün bunları etmək olmaz. Azərbaycan ötən illərdə çox böyük uğurlara imza atıb. Bu gün bizim hər birimiz belə bir ölkənin vətəndaşı olduğumuz üçün qürur duyuruq, eyni zamanda, bunun məsuliyyətini daşımalıyıq. Azərbaycanın əsas qanunu olan Konstitusiyada hüquq bərabərliyi və onun dövlət tərəfindən təmin edilməsi öz təsbitini tapıb. Dünyada gündəlik hüquqpozmalar, məişət zorakılığı, mənsubiyyətə görə fərqqoyma kimi mənfi hallarla üzləşdiyimiz bir dövrdə beynəlxalq təşkilatlar koordinasiya olunmuş şəkildə fəaliyyət göstərməlidirlər. Bunun üçün də geniş maarifləndirmə işləri aparılmalıdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai diqqətə çatdırıb ki, Azərbaycan insan hüquqlarının qorunması sahəsində çox fəaldır və Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən irəli gələn öhdəliklərini yerinə yetirir. Azərbaycan insan haqları ilə bağlı tövsiyələrə əməl edir, insan haqlarına hörmətini nümayiş etdirir, bir çox beynəlxalq sazişlərə qoşulub.

Qulam İshaqzai əlavə edib ki, dünyada vətəndaş cəmiyyətinin insan hüquqlarının qorunması ilə bağlı atdıqları addımlar getdikcə daralır. Hər bir şəxsin hüquqlarının qorunması hamımızdan asılıdır. Dayanıqlı inkişaf üçün yoxsulluğun aradan qaldırılması insan hüquqlarının yaxşılaşmasına yönəlmiş addımdır. İnsanlar dünyada baş verən proseslərdən, dəyişikliklərdən, qeyri-müəyyənliklərdən əziyyət çəkirlər. İnsan hüquqlarının qorunması bu mənada çox vacibdir. Azərbaycan bu sahədə də uğurlar qazanıb, çox fəal şəkildə müntəzəm olaraq aidiyyəti qurumlara hesabatlar təqdim edir. BMT Azərbaycana bu istiqamətdə dəstək verir.

UNİCEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin bildirib ki, Azərbaycan 26 il bundan əvvəl BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub. Azərbaycan hökuməti konvensiyadan irəli gələrək uşaqların ibtidai təhsil almaları, ölüm hallarının azaldılması və erkən nikahların qarşısının alınması istiqamətində işlər görüb. Azərbaycan hökuməti və parlamenti birgə fəaliyyətlə həssas ailələrdəki uşaqlara xüsusi diqqət yetirir.

Bundan başqa, E.Karvardin Azərbaycanda qız uşaqlarının təhsilə cəlb edilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirib. Əlavə edib ki, qızların təhsil almaları gələcək nəslin savadlı olmasına yol açır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova deyib ki, Azərbaycan hökuməti qadınların və uşaqların müdafiəsi sahəsində gələcəkdə görüləcək işləri və hədəfləri müəyyən edib. Həmin tədbirlərin ən vacibi ailə institutunun gücləndirilməsi, reproduktiv sağlamlıq, qadınların və uşaqların zorakılığına qarşı tədbirlərin görülməsidir. O deyib ki, məişət zorakılığı bu gün aktualdır, amma məişət zorakılığı ilə bağlı vəziyyətə baxış fərqlidir. Bu gün zorakılıq qurbanlarının hüquqlarının müdafiəsi üçün tədbirlər görülür. Ölkədə hər bir işdə davamlılığın təmin edilməsi üçün tədbirlər həyata keçirilir. Ötən müddət ərzində qadınların hüquqlarının müdafiəsi sahəsində iki mühüm qanun - "Gender siyasəti haqqında" və "Məişət zorakılığı haqqında" qanunlar qəbul edilib.

Sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni insan hüquqlarının müdafiəsi sahəsində tədrisin rolu və insan hüquqları və vətəndaş cəmiyyəti mövzularında çıxış ediblər.

Tədbirin sonunda Ombudsman Aparatının "Hüquqlar - hamı üçün" və "Mən və hüquqlarım" mövzularında təşkil olunan yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb.

AZƏRTAC

# Dəmir yolunda yüksək inkişaf



**Bu gün ümummilli lider Heydər Əliyevin o dövrdə təməlini qoyduğu güclü iqtisadiyyatın nəticəsidir ki, müstəqil Azərbaycan qısa bir zamanda yüksək iqtisadi inkişafa nail olmuşdur. 1993-cü ildə ulu öndərin yenidən Azərbaycanda hakimiyyətə qayıdışından sonra bütün sahələrdə tüğyan edən tənəzzülün qarşısı alındı, həyata keçirilən köklü islahatlar sayəsində yeni inkişaf dönəmi başladı. Bu inkişaf ölkənin nəqliyyat, o cümlədən dəmir yolu sahəsindən də yan ötmədi. Heydər Əliyev bilirdi ki, hər bir ölkənin iqtisadi inkişafı üçün nəqliyyat sektorunun müasir dünya standartları səviyyəsində olması əsas şərtlərdəndir.**

Təməli dahi öndər Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat siyasəti hazırda Heydər Əliyev siyasi məktəbinin ali məzunu, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Ölkə üçün nəqliyyat ən mühüm sahələrdəndir,- deyən cənab Prezident bu sahəyə, xüsusən də respublikanın dəmir yolu sektoruna xüsusi diqqət və qayğı göstərir. Bu gün Azərbaycan dəmir yolu sahəsində logistik mərkəzə, tranzit ölkəyə çevrilir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində əsas rol oynayır. Bakı-Tbilisi-Qars və digər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallaşdırılması və digər qlobal işlərin həyata keçirilməsi məhz dövlət başçısının təşəbbüsü və ciddi səyi, əzmkarlığı sayəsində öz həllini tapır, transmilli layihələr ardıcıl olaraq reallığa çevrilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəmir yolu sektorunun inkişafı, müasirləşməsi və yenidən qurulması ilə bağlı qarşıya qoyduğu genişmiqyaslı işlər, məqsədlər "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun cəmiyyətə sədr təyin olunmasından ötən üç il ərzində, müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması ilə ardıcıl olaraq, yüksək keyfiyyətlə vaxtında həyata keçirilir. Bir sözlə, yeni inkişaf dövrünə qədəm qoyulub.

Dəmir yolu nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramına əsasən, enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yenilənməsi və digər mühüm tədbirlər həyata keçirilmişdir. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi zamanın tələbidir. Bu həm də əlavə valyuta resurslarının Azərbaycan iqtisadiyyatına yönəldilməsi deməkdir.

Bakı və Sumqayıt şəhərləri arasında mövcud olan sərnişin sıxlığını, eləcə də avtomobil yolunda tıxac problemini həll etmək üçün bu şəhərlər arasında bir zamanlar mövcud olan dəmir yolu yenidən əsaslı təmir edildi və 2015-ci ilin 12 sentyabrında Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edəcək ilk sərnişin qatarının yolasalınma mərasimi keçirildi. Mərasimdə Azərbaycan Prezidenti cənab İlham Əliyev şəxsən iştirak etdi.

Ölkə başçısının tapşırığına əsasən dəmir yolunun bütün müəssisə və təşkilatlarında təmir-tikinti, yenidənqurma işləri uğurla həyata keçirilir. Azərbaycan dəmir yolu nəqliyyatının müasir dünya standartlarına uyğunlaşdırılması, ən müasir tikinti-avadanlıqlarla təchiz olunması üçün böyük işlər görülür. Görülən bütün işlər, həyata keçirilən tədbirlər "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi və nəzarəti altında yüksək keyfiyyətlə həyata keçirilir. Bu gün öz görkəmini tamamilə dəyişən, ən müasir tələblər səviyyəsində əsaslı təmir olunmuş dəmir yolu müəssisələrindən olan Sumqayıt Dəmir Yolu Vağzalı da təmirdən sonra istifadəyə verilmişdir. Vurğulayım ki, stansiyada 2016-cı ilin sonlarından təmir-tikinti işlərinə start verilmişdir. Aparılan yenidənqurma işləri 2018-ci ilin noyabr ayının 16-da yekunlaşmış və vağzalın əsaslı təmirindən sonra açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Sumqayıt vağzalında görülən işlər sərnişinlər üçün yaradılmış şərait, xidmət səviyyəsinin yüksəldilməsi yönümündə həyata keçirilən tədbirlərlə yaxından tanış olan cənab Prezidentə "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanov ətraflı məlumat vermişdir.

Qeyd edim ki, stansiyada işçilərin yararlı iş fəaliyyəti ilə məşğul olmaları üçün geniş, hər biri müasir texniki avadanlıqlarla təchiz olunmuş iş otaqları, sərnişinlərin gözləmə zalı, məlumat bürosu, qatar maşinistlərinin istirahət otaqları, işçilərin tibbi nəzarətdən keçmələri üçün tibb məntəqəsi, qəsəbə və şəhəri birləşdirən yeraltı keçid (uzunluğu 41 metr), 54 avtomobil tutumlu yeraltı dayanacaq, stansiyanın bütün ərazisini mühafizə məqsədilə təhlükəsizlik kameraları, müasir işıqlandırma sistemi, su təchizatı, yanğından mühafizə sistemləri yaradılıb. Beləliklə, stansiyada 24 saat ərzində sərnişinlərin rahat stansiyanın xidmətlərindən yüksək səviyyədə istifadə etmələri üçün keyfiyyətli bir sistem təşkil olunmuşdur. Sumqayıt stansiyasında vətəndaşlara keyfiyyətli xidmət göstərilməsi üçün yaradılmış bu şərait stansiyada sərnişin axınının xeyli dərəcədə artmasına imkan yaratmışdır. Bu gün təkcə Sumqayıt stansiyasının payına düşən sərnişin axını sayı 2-3 min nəfərdir. Sərnişinlərin rahatlığının təmin edilməsi məqsədilə burada Bakı Kart aparatı quraşdırılmışdır. Quraşdırılmış yeni aparat vasitəsi ilə də sərnişinlərin rahat bilet almaları həyata keçirilir.

Sumqayıt stansiyasının inzibati binasında müasir tələblərə cavab verən havalandırma, isitmə-soyutma sistemləri də quraşdırılıb. Maşinistlərin istirahəti və gecələmələri üçün istirahət otaqları yeni mebel yataq dəstləri ilə təchiz olunub. Otaqların hamısında işçilərin rahatlığı üçün müasir səviyyədə sanuzel quraşdırılıbdır. Bundan əlavə, stansiyanın ərazisində, platformalarda, keçidlərdə, gözləmə zalında və ümumiyyətlə, sərnişinlərin hərəkət etdiyi əsas istiqamətlərdə döşəmələrdə gözdən əlil insanların rahat, təhlükəsiz hərəkəti üçün sarı zolaqlı, istiqamətləndirici xətt quraşdırılıb. Vağzal ərazisinin mühafizəsini həyata keçirmək üçün polis məntəqəsi yaradılıb. Stansiyada çalışan işçilərin nahar etmələri üçün hər cür lazımi vasitələrlə təmin olunmuş yeməkxana var.

Stansiyanın platformalarındakı yollar tam olaraq dəyişdirilib və beton şpallarla təchiz edilib. Platformalarda elektrik sistemi yenilənib. Hündür və alçaq tipli platformalar fəaliyyətdədir. Platformalarda quraşdırılmış monitorlar və səs ucaldıcı vasitəsilə sərnişinlərin məlumatlandırılması işləri təmin olunur. Stansiyada yeni quraşdırılmış qazanxana və nasosxana fəaliyyətdədir. Qatarların hərəkətinin tənzimlənməsi üçün yeni "Springer" sistemi yaradılmışdır. Yeni tikilmiş ikimərtəbəli binada isə qatarların hərəkətinin təhlükəsiz qəbulu, göndərilməsi və manevr işlərini yerinə yetirən stansiya növbətçisi çalışır. Onu da vurğulayım ki, sərnişinlərin daşınması müasir tipli "Stader" qatarı vasitəsilə həyata keçirilir.

**Nail YOLÇUYEV,**
**"ADY" QSC-nin Sumqayıt DY sərnişin stansiyasının rəisi.**







# Qazax rayonunun statistik göstəriciləri

2018-ci ilin yanvar-sentyabr aylarında Qazax rayonunun iqtisadiyyatının əsas sahələrində irəliləyişlər mövcuddur. Bu aylar ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 298,6 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 11,4 faiz çoxdur.

Rayonda məhsul buraxılışının strukturu aşağıdakı kimidir.




İlin əvvəlindən rayon əhalisinin sayı 97380 nəfərə çatmışdır. Əhalinin hər bir kvadratkilometrə düşən sayı 140 nəfər olmuşdur.

Rayon əhalisinin 21910 nəfəri şəhər, 75470 nəfəri isə kənd sakinləridir. Ümumi sayın 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür.

Təbii artım 454 nəfər olmuşdur. 2018-ci ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 74394,2 min manat təşkil etmişdir ki, onun da 33697,9 min manatı heyvandarlıq, 40696,3 min manatı isə bitkiçilik məhsullarının payına düşür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 12,1 faiz artmışdır.

Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilikdir. Rayonda 2018-ci ilin məhsulu üçün 18913,9 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, əkin sahəsi keçən ilə nisbətən 1895,5 hektar çox olmuşdur. Əkilmiş sahənin 12351,7 hektarı payızlıq taxıl olmuşdur ki, ondan 8915,2 hektarı buğda, 3436,5 hektarı arpa sahəsidir. Keçən ilə nisbətən 637,5 hektar payızlıq buğda, 685,9 hektar payızlıq arpa artıq səpilmişdir. 2018-ci ilin məhsulu üçün 973,2 hektar sahədə yazlıq dənlilər səpilmişdir ki, bundan 186,8 hektarı buğda, 90,5 hektarı arpa, 62,0 hektarı vələmir, 543,5 hektarı qarğıdalı, 2,4 hektarı darı, 88,0 hektarı sorqo olmuşdur. Keçən ilə nisbətən yazlıq bitkilər 417,3 hektar artıq səpilmişdir.

2018-ci ilin məhsulu üçün payızlıq və yazlıq 13628,1 hektar dənlilər və dənli paxlalılar biçiləcək sahə vardır. Bu da keçən ilə nisbətən 1991,9 hektar çoxdur. Biçiləcək sahənin payızlıqlardan başqa, 543,5 hektarı qarğıdalı, 2,4 hektarı darı, 186,8 hektarı buğda, 90,5 hektarı arpa, 62,0 hektarı vələmir, 88 hektarı sorqo, 303,2 hektarı dənli paxlalılardır. Keçən ilə nisbətən qarğıdalı 38,7 hektar, paxlalılar isə 251,2 hektar çoxdur. 106,0 hektar sahədə yazlıq texniki bitkilər əkilmişdir. Texniki bitkilərin 60,0 hektarı tütün, 46,0 hektarı günəbaxandır. Keçən illə müqayisədə tütün əkilmiş sahə 10 hektar çox, günəbaxan əkilmiş sahə 16,5 hektar azdır. 2018-ci ildə rayonda 1608,3 hektar sahədə kartof, tərəvəz və bostan məhsulları əkilmişdir ki, ondan 1086,0 hektarı kartof, 491,3 hektarı tərəvəz, 31,0 hektarı bostan əkilmiş sahədir. Keçən illə müqayisədə tərəvəz 7,5 hektar, kartof isə 276,9 hektar çox səpilmişdir. Bostan məhsullarının səpini isə keçən ilə nisbətən 0,4 hektar az olmuşdur. Cəmi əkin sahəsinin 3571,5 hektarı yem bitkiləridir ki, ondan 538,7 hektarı cari il yoncası, 3032,8 hektarı isə keçmiş illərdə əkilmiş yoncadır. Keçən illə müqayisədə cari ildə əkilmiş yonca 91,8 hektar az, keçmiş illərdə əkilmiş yonca isə 326,8 hektar artıq olmuşdur. 01 oktyabr 2018-ci il tarixədək taxıl biçini başa çatmış, 12629 hektar sahədən 41986,2 ton məhsul istehsal olunmuşdur ki, məhsuldarlıq hər hektara 33,2 sentner təşkil edir. Biçilmiş sahənin 9102 hektarı buğda, 3527 hektarı isə arpa sahəsidir. Rayonda 6260, 3 kiloqram barama yetişdirilib təhvil verilmişdir. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində heyvandarlıq məhsulları istehsalı 33697,9 min manat olmuşdur ki, bu kənd təsərrüfatı məhsulu istehsalının 45,3 faizini təşkil edir. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində rayonun sənaye təşkilatlarında fiziki şəxslər də daxil olmaqla istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi keçən ilin müfaviq dövrünə nisbətən 0,8 faiz azalaraq 25414,5 min manat təşkil etmişdir. Ümumi istehsalın 62,9 faizi sənaye məhsulunun istehsalı, 37,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. Mədənçıxarma sənayesində istehsalın dəyəri 11867,0 min manat olmaqla əvvəlki ilə nisbətən 14,8 faiz azalmışdır. Mədənçıxarma sahəsinin əsas məhsulu olan əmtəəlik bentonit gili istehsalı 74681 ton, tikinti daşı istehsalı isə 139601 ton, əhəng daşı tozu istehsalı 5425,6 ton təşkil etmişdir. Bentonit gili istehsalının həcmi natura ifadəsində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz, tikinti daşı istehsalı isə 21,0 faiz artmışdır. Tikinti daşı istehsal edən müəssisələr tərəfindən istehsal olunan məhsulun pul ifadəsində həcmi 218,0 min manat olmuşdur. Emal sənayesinə aid olan müəssisələr tərəfindən 4116,2 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu, ümumi məhsul istehsalının 16,2 faizini təşkil edir. 2018-ci ilin doqquz ayında 9,0 min manatlıq xalça, 3723,5 min manatlıq mebel istehsal olunub satılmışdır. Doqquz ay ərzində 90 kvadratmetr xalça, mebel istehsalı ilə məşğul olan müəssisələr tərəfindən 7319 ədəd yataq mebel dəsti, 1767 ədəd qonaq otağı üçün mebel, 2871 ədəd yumşaq mebel dəsti istehsal olunub satılmışdır. Sənaye müəssisələrində orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 334,4 manat olmuşdur. Sənaye müəssisələrinə yanvar-sentyabr aylarında 346 nəfər işçi qəbul edilmişdir ki, bunlardan 137 nəfər işçi yeni açılmış iş yerlərinə qəbul edilmişdir.

Doqquz ayda rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 11,4 faiz artaraq 298,6 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışanların əməkhaqları 306,7 manat, özəl müəssisələrdə çalışanların əməkhaqları isə 281,9 manat olmuşdur. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti sahəsində orta aylıq əməkhaqqı rayon üzrə orta göstəricidən yüksək olmuşdur.

**Faiq PAŞAYEV,**
**Qazax Rayon Statistika İdarəsinin rəisi.**

# "BAĞÇANIN TƏQDİMATI" LAYİHƏSİ

**"Gənc Tərbiyəçilər Birliyi"nin təşkilatçılığı əsasında Şəmkir rayonunda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin iştirakı ilə "Bağçanın təqdimatı" başlığı altında layihə həyata keçirilir. Layihə çərçivəsində növbəti təqdimatı Şəmkir rayon Yeni Həyat kənd körpələr evi-uşaq bağçasının fidanları ediblər.**




Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov da iştirak edib. Yeni Həyat kənd körpələr evi-uşaq bağçasının körpə fidanları bir-birindən maraqlı kompozisiyalarla izləyicilərin diqqətini çəkməyi bacarıblar.

Körpələrin məharətlərinə heyran qalan rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov gözəl təqdimata görə uşaq bağçasının kollektivinə təşəkkürünü bildirib.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Azərbaycanın ilk rəsmi Ünvan Portalı

Ölkəmizin ilk rəsmi Ünvan Portalı (www.unvanportali.az) istifadəyə verilib. Bu məqsədlə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dekabrın 6-da dövlət qurumlarının, ictimai təşkilatların, naviqasiya şirkətlərin nümayəndələrinin, əmlak və nəqliyyat ekspertlərinin iştirakı ilə geniş İctimai Təqdimat keçirilib. Tədbirin məqsədi ünvan məsələləri ilə bağlı bütün göstəriciləri bir virtual platformada cəmləşdirən bu portalın istifadə qaydaları, üstünlükləri ilə bağlı ətraflı məlumat vermək, o cümlədən vətəndaşların, dövlət qurumlarının, bələdiyyələrin bu layihədən ala biləcəkləri faydanı izah etməkdir.

Əmlak Məsələləri Dövlət Komitəsinin Aparat rəhbəri Azər Başirov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 noyabr 2013-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında" əsasnaməyə uyğun ölkədə müasir Ünvan Reyestri İnformasiya Sistemi (ÜRİS) qurulub. Bu istiqamətdə inkişaf etmiş ölkələrin təcrübələri nəzərdən keçirilib, ən optimal varianta əsasən yeni yanaşmalar tətbiq edilib. Yeni ünvanvermə qaydalarına əsasən, "giriş ünvanı konsepsiyası"ndan istifadə olunur. Ünvanlar binalara yox, binanın hər bir girişinə ayrıca verilir. Bu beynəlxalq standarta cavab verməklə yanaşı, ünvan axtarışına sərf olunan vaxtı minimuma endirir.

Komitə və yerli icra hakimiyyətləri ilə birgə aparılan işlər nəticəsində respublikanın şəhər və rayon mərkəzlərində 7244 küçə və prospektə, kənd yaşayış məntəqələri üzrə 19 minə yaxın nəqliyyat infrastrukturu obyektlərinə (NİO) yeni adlar verilib və yeni yaradılmış ÜRİS-nə daxil edilib. Hazırda ÜRİS-də respublikanın şəhər, rayon mərkəzləri və qəsəbələri olmaqla ümumilikdə 16155 adlı NİO və onlar üzrə 834 min ədədə yaxın giriş ünvanı, 420 minə yaxın daxili ünvan məlumatları toplanıb.

Artıq elektron idarəçilik müstəvisinə keçən Ünvan Reyestrinin məlumat bazası digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya edir.

Ünvan Portalının istifadəyə verilməsi də bu sahədə mühüm innovativ addımlardandır. Portal ünvanla bağlı bütün məlumatları bir yerdə cəmləşdirən vahid platformadır. Sayt Ünvan Reyestri İnformasiya Sisteminin məlumat bazası əsasında yaradılıb, yeni və köhnə ünvanlar bu məkanda yerləşdirilib. Vətəndaşlar, dövlət qurumları və hüquqi şəxslər ünvanlarla bağlı rəqəmsal şəkildə toplanmış məlumatları rəsmi, fasiləsiz və çevik qaydada Portaldan əldə edə bilirlər.

Əgər obyektin yerləşdiyi ünvanın adı istifadəçi üçün yenidirsə, o, köhnə ünvana görə də axtarış edə bilir. Bundan başqa, istifadəçilər obyekti ünvanla yanaşı, koordinata görə də axtarmaq imkanına malikdir. Bu zaman onlar uzunluq və en dairəsini qeyd edirlər. Həmçinin, vətəndaşlar olduğu yerdən gedəcəyi ünvana qədər olan məsafəni də müəyyən edə bilirlər.

Əsas pəncərənin yuxarısında yerləşmiş "Məlumat" düyməsi vasitəsi ilə istifadəçi onu maraqlandıran müxtəlif suallara cavab tapa bilər və telefon vasitəsilə operatorla birbaşa əlaqə yarada bilər.

Daha sonra çıxış edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin direktoru Elnar Əsədov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron hökumət və rəqəmsal innovasiyalar şöbəsinin müdiri Ceyhun Salmanov Ünvan Portalının bu sahənin inkişafında yeni mərhələ olacağını bildiriblər. Eyni zamanda, QHT rəhbərləri olan Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev Ünvan Portalının istifadəyə verilməsini yüksək qiymətləndiriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Astanada keçirilən beynəlxalq konfransda Azərbaycanın korrupsiyaya qarşı mübarizə strategiyasına böyük maraq göstərilib

**Astanada "Qlobal kontekstdə korrupsiyanın qarşısının alınması" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, 9 dekabr - Korrupsiyaya Qarşı Beynəlxalq Mübarizə Gününə həsr olunan konfransda ölkəmizi Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev təmsil edib.

Qazaxıstan Respublikasının Dövlət Qulluğu Məsələləri və Korrupsiyaya Qarşı Mübarizə Xidmətinin ATƏT-in və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə təşkil etdiyi tədbirə bir sıra xarici ölkələrin antikorrupsiya qurumlarının, beynəlxalq təşkilatların, media qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri qatılıblar.

Tədbirdə korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların səyləri və dövlət antikorrupsiya qurumlarının rolu, bu sahədə məlumatlılığın artırılmasında beynəlxalq reytinqlərin əhəmiyyəti, işgüzar dairələrin və vətəndaş cəmiyyətinin töhfəsi mövzularında məruzələr dinlənilib.

"Korrupsiyaya qarşı təsirli mübarizənin zəmini olan institusional sabitlik" mövzusunda məruzə ilə çıxış edən Elnur Musayev Azərbaycanda institusional quruculuq sahəsində reallaşdırılan uğurlu islahatlar nəticəsində dövlət idarəçiliyinin gücləndiyini və sabitliyin təmin olunduğunu vurğulayıb. O, korrupsiyaya qarşı mübarizə strategiyasının tutarlı nəticələri barədə məlumat verib.

Konfransda bölgənin digər ölkələri ilə müqayisədə Azərbaycanın sabit və davamlı inkişaf edən antikorrupsiya modeli uğurlu təcrübə kimi təqdir edilib.

Tədbirdə korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsi, əməkdaşlığın genişləndirilməsi və s. məsələlər müzakirə olunub.

**AZƏRTAC**

# Aktyor Abbas Mirzə Şərifzadənin 125 illiyinə həsr olunmuş tədbir

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Yasamal Rayon MKS-nin əməkdaşları və fəal oxucuların təşkil etdiyi Yasamal rayon A.M.Şərifzadə adına Mədəniyyət Mərkəzində tanınmış aktyor Abbas Mirzə Şərifzadənin 125 illiyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbirdə tanınmış ziyalılar, mədəniyyət və incəsənət xadimləri, professor İlham Rəhimli, Xalq artisti Azər Paşa Nemətov, görkəmli ədəbi tənqidçi, filologiya üzrə fəlsəfə doktoru Əsəd Cahangir, Xalq artisti, Gənc Tamaşaçılar Teatrının sabiq baş rejissoru Ağakişi Kazımov, Xalq artisti Hacı İsmayılov, Xalq artisti, Dövlət Pantomima Teatrının direktoru Bəxtiyar Xanızadə və başqaları iştirak etdilər.

Tədbiri giriş sözü ilə Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova açaraq bildirdi ki, Yasamal rayonunda böyük quruculuq işləri aparılır, rayon günü-gündən abadlaşır. Rayonun ərazisində çoxlu ali məktəblər, Milli Elmlər Akademiyasının bir çox institutları fəaliyyət göstərir. O, A.M.Şərifzadə haqqında qısa məlumat verərək bildirdi ki, rayonun ərazisində aktyorun adını daşıyan küçə və Mədəniyyət Mərkəzi vardır.

Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli elmi araşdırmalarından danışaraq qeyd etdi ki,



A.M.Şərifzadə novator-aktyor olub. Onun təklifi ilə istedadlı insanlar Xarkov və Moskva şəhərlərinə oxumağa göndərilib. İ.Rəhimli vurğuladı ki, Həştərxanda teatrın əsasını azərbaycanlılar qoyub. Simferopol, Oş, Buxara, Səmərqənd, Aşqabad teatrlarının yaranması da azərbaycanlılarla bağlıdır. Professor bildirdi ki, 1921-1937-ci illərdə A.M.Şərifzadə dəfələrlə H.Cavidin "Şeyx Sənan" tamaşasında baş rolu ifa edib. Onun bir çox uğurlu rollarından danışaraq, "İblis", "Topal Teymur", "Aydın", "Od gəlini" və başqa tamaşaları da qeyd etdi və A.M.Şərifzadəni həm də "böyük rejissor" adlandırdı.

Xalq artisti, professor Ağakişi Kazımov bildirdi ki, A.M.Şərifzadə 1938-ci ildə güllələnib. O, tanınmış aktyoru bənzərsiz bir insan kimi tədbir iştirakçılarına təqdim etdi və qeyd etdi ki, o, bütün aktyorların müəllimi olub, aktyor, rejissor, tərcüməçi, pyeslərin müəllifi və kino rejissoru kimi də tanınmışdı.

Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Azər Paşa Nemətov professor İlham Rəhimlinin yorulmaz əməyini qeyd edərək bildirdi ki, o, A.M.Şərifzadə haqqında bir çox sənədləri araşdırıb üzə çıxara bilmişdir.

Xalq artisti, aktyor Hacı İsmayılov A.M.Şərifzadəni teatrımızın işığı adlandırdı və "Yaşıl eynəkli adam" tamaşasından maraqlı fraqment söylədi.

Ədəbi tənqidçi Əsəd Cahangir bildirdi ki, A.M.Şərifzadə çox çətin və təhlükəli bir dövrdə yaşayıb yaratmışdır.

Xalq artisti Bəxtiyar Xanızadə çıxışında bildirdi ki, A.M.Şərifzadə böyük aktyor olmaqla yanaşı, həm də böyük insan idi.

Sonda tədbir iştirakçıları A.M.Şərifzadə haqqında videoçarxı, "Молла Мирза Абдулрагим" və "Cavid ömrü" filmlərindən fraqmentləri izlədilər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Zaqatala: Səyyar qəbul vətəndaş istəyinə dövlət qayğısıdır

Artıq onuncu ildir ki, rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Zaqatalanın hər bir kəndinin, qəsəbəsinin bu qayğıdan lazımınca bəhrələnməsi üçün imkanlardan səmərəli istifadə edir. Elə bir yaşayış ünvanı yoxdur ki, icra başçısı orada azı 4-5 dəfə görüşdə olmasın, vətəndaş, istək, arzu və təkliyi ilə yerində maraqlanmasın. Özünün dediyi kimi hər bir görüşdən aldığı təəssürat, istiqamət ona həmin iş günündə böyük təskinlik verir, sabahkı iş günü üçün etibarlı stimul yaradır. O gün də, yəni noyabrın 29-da icra başçısı növbəti görüşə, rayonun Car kəndində olacaq səyyar qəbula hazırlaşırdı. Həmin ərazi nümayəndəliyinə dair lazımi məlumatları toplayır, son vaxtlar burada görülən işlərin, qarşıda duran vəzifələrin nəticəsi ilə maraqlanır, icra hakimiyyətinin əlaqədar şöbələrindən məlumatlar əldə edirdi. Birlikdə Car kəndindəki səyyar qəbulda iştirak etdik.





Öncə qeyd edək ki, sözügedən Car kənd inzibati ərazi dairəsi 1991-ci ildə formalaşmışdır. Nümayəndəliyin tərkibinə Car, Zilban, Axaxdərə kəndləri daxildir. Hər üç kənddə birlikdə 3442 nəfər əhali yaşayır. Təsərrüfatların sayı 1250-dir. Burada 1 tam və 1 ümumi orta məktəb, körpələr evi-uşaq bağçası, mədəniyyət evi, kitabxana, həkim məntəqəsi, müxtəlif ərzaq, sənaye və digər ticarət, məişət obyektləri fəaliyyət göstərir. Yuxarıda adları çəkilən hər üç kəndin vətəndaşları, taxılçılıqla, tərəvəzçiliklə, tütünçülüklə, baramaçılıqla, heyvandarlıqla məşğul olurlar. Bir faktı xatırladaq ki, əgər burada 2017-ci ildə 3788 baş mal-qara, qoyun-keçi vardısa, 2018-ci ilin on ayının yekununda bu 3797 baş olmuşdur. Əvvəlki illə müqayisədə inzibati ərazi dairəsi üzrə kənd təsərrüfatının bəzi sahələrində məhsul istehsalı artırılmış, sosial quruculuq məsələlərinə diqqət ön planda saxlanılmışdır. Nümayəndəlikdə dövlət mülkiyyətində 389, bələdiyyə mülkiyyətində 418, xüsusi mülkiyyətdə 1312 hektar torpaq sahəsi var. Yuxarıda sadalanan faktlar rayon mərkəzi Zaqatala şəhərinə bitişik olan Carın və onun əhatə etdiyi digər iki yaşayış məntəqəsinin sosial-iqtisadi həyatı barədə ilkin təəssüratlar olsa da səyyar qəbul başlanana kimi bura yığışan sakinlərin bəzilərinin söhbətlərindən son illərdə dolanışıqlarında, sosial həyatlarının yaxşılaşdırılmasında xeyli dönüş olduğunu aydınlaşdırırıq.

Səyyar qəbul başlanandan sonra rayonun sosial-iqtisadi inkişafı haqqında qısa məlumat verən icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Car inzibati ərazi dairəsinin fəaliyyətinə də qısa nəzər saldı. Bildirdi ki, 2018-ci ildə rayonda qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişaf etdirilməsində də Car, Zilban, Axaxdərə sakinlərinin də öz payları var. Zaqatalanın son on ildə pillə-pillə ucalığa doğru addımlamasında, onun sosial-iqtisadi həyatının gücləndirilməsində də Car inzibati ərazi dairəsi, bələdiyyəsi verilən tapşırıqların icrasına diqqət yetirmişlər. İcra başçısı onu da bildirdi ki, görülən işlərlə yanaşı bu gün sakinləri narahat edən məsələlər də var və görüşdə onlar haqqında açıq danışmalı, istəklər, arzular, təkliflər söylənilməlidir. Beləliklə açıq söhbət başlandı. Əsabəli Kasdayev suvarma və içməli su probleminin həlli üçün bir subartezian quyusunun qazılmasına ehtiyac olduğunu söylədi. O, tədbirdə bələdiyyə üzvlərinin vergi borclarının yığılmasına zəif köməklikləri barədə səslənən fikrə münasibətində qeyd etdi ki, haqlı iraddır və hər bir bələdiyyə üzvü bu işin fəal köməkçisi olmalı, vergilərin ödənilməsinin kəndin sosial-iqtisadi işlərinə sərf olunduğu barədə maarifləndirməyə geniş yer ayrılmasını təklif etdi. Mamed Əlizalov isə yaşadığı məhəllənin dayanıqlı elektrik enerjisi ilə təmin olunmamasından əziyyət çəkdiklərini rayon rəhbərinə çatdırdı. Qeyd etdi ki, kənddə evlərin elektrik abonentlərinin sayı artsa da transformatorlar yenə keçmişdəki gücündədir. Rayon paylayıcı elektrik şəbəkəsinin qəbulda olan səlahiyyətli nümayəndəsinə bu vəziyyətin aradan qaldırılması ilə əlaqədar tapşırıq verildi.

Kənd sakini Bəşir Bulayev öz çıxışında dedi:

—Qeyd olunduğu kimi, ərazimizdən keçən Talaçay çayı ilin güclü yağışlar olan vaxtlarında məcrasından çıxır daşqınlar yaranır, təsərrüfatlarımıza, həyətlərimizə ziyan vurur. Ona görə də çay boyunda sahil-bərkitmə işlərinə köməkliyə ehtiyac var.

Bu barədə də rayon suvarma sistemləri idarəsinə lazımi tapşırıqlar verildi. Növbəti səyyar qəbul işgüzar şəraitdə, açıq söhbətlə, vətəndaş istək və təkliflərinə yüksək qayğı və diqqətlə başa çatdı.

**Rasim AMANOV,**
**“Respublika”.**



# Göyçay: çinarlar şəhəri yeni inkişaf mərhələsində

**Göyçay rayonuna gəlişim uzaq-yaxın tələbəlik illərimin xatirələrini yadaşımda təzələdi. Adətən Göyçay deyərkən, ilk növbədə, Xalq şairimiz Rəsul Rza və onun yaratdığı ölməz əsərlər göz önündə canlanır. Lakin bu səfalı diyarın çörəyi, havası və suyu ilə yetişmiş onlarca tanınmış ziyalı, şair, elm adamı, general, hətta iş adamları vardır ki, bu gün onların adları sıralanarkən istər-istəməz düşünürsən və qürur hissi ilə deyirsən, baxın, görün bu torpaq Azərbaycanımıza kimləri bəxş edib.**

Rayonu qarış-qarış gəzə bilməsəm də, təəssüratlarımı bölüşəcəyim çoxsaylı maraqlı faktlarla yanaşı, Cümhuriyyətimizin ilk paytaxtı qədim Gəncəyə gözəllik verən möhtəşəm çinarların sanki onunla yanbayan dayanmış Göyçayın da küçə və xiyabanlarına xüsusi yaraşıq olduğunu bir daha doğmalıqla qəbul etdim.

Göyçay rayonu Azərbaycanımızın mərkəzində, eyniadlı çayın sahilində, Böyük Qafqazın dağ və dağətəyi hissəsində yerləşir. Əhalisinin sayı, ətraf kəndlər də daxil olmaqla, 116 mindən yuxarıdır.

Göyçayla ilk tanışlığım yerli stadiondan başladı. Bələdçim, həm də şəhər rəsmisi, rayon icra hakimiyyətinin ərazi inzibati dairəsi üzrə nümayəndəsi Rəşad Şükürovun qeyd etdiyi kimi, müstəqillik dövründə Göyçayda “Çinar” futbol klubu fəaliyyət göstərib. Uzun illər şəhər stadionu baxımsız qalıb. 2016-cı ilin iyun ayında rayon icra hakimiyyətinin başçısı təyin edilən Mehdi Səlimzadə vaxtilə kütləvi idman yarışlarının yer aldığı bu sağlamlıq ocağının və yaxınlıqdakı 7 hektar ərazidə yerləşən parkın abadlaşdırılması işinə start verib. Bu gün həm stadion, həm də park göyçaylıların sevimli istirahət məkanına çevrilmişdir. Park haqqında onu deyə bilərəm ki, 2017-ci ildə əsaslı təmir edilib. Ərazidə Göyçay torpağının tanınmış şairləri - Əli Kərim, İsgəndər Coşqun və Əli Səmədlinin uyuduğu kiçik xiyaban-kompleks yenidən qurulub, Azərbaycanın görkəmli ədiblərinin abidədələrindən ibarət ansambl - “Əbədiyaşar ədiblər” kompleksi inşa edilib, 1979-cu ildən parkın adını daşıyan şair Əli Kərimin abidəsi yer alıb. Parka bitişik ərazidə Qarabağ müharibəsi dövründə həlak olmuş Göyçay şəhidlərinin dəfn olunduğu yer isə sakinlərin davamlı baş çəkdiyi ziyarətgahdır. Burada, eyni zamanda Xocalı soyqırımı, 20 Yanvar şəhidlərinə və 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində həlak olmuş azərbaycanlılara abidələr ucaldılmışdır.

Göyçayda ölkə əhəmiyyətli abidələr də diqqətçəkəndir. 19-cu əsrdən qalmış “Yeraltı hamam” dövlət tərəfindən qorunur. Əbülfəzlil Abbas məscidi, sakinlərin dediyinə görə, Göyçay qəza mərkəzi olan vaxtlardan ətraf rayonların əhalisinə xidmət göstərir. Rayon rəhbərinin göstərişi ilə məsciddə aparılmış yenidənqurma və təmir işləri ibadətə gələnlər tərəfindən böyük razılıqla qarşılanıb.

Bu gün Göyçayın mərkəzi küçələrindən olan Heydər Əliyev prospekti və geniş ərazidə 2015-ci ildə salınmış Heydər Əliyev parkı, 2010-cu ildə inşa edilmiş Heydər Əliyev Mərkəzi və mərkəzin qarşısında ulu öndərə ucaldılmış möhtəşəm abidə şəhərə xüsusi gözəllik verir. Məhz buradan yaşıllıqlara qərq olmuş Heydər Əliyev xiyabanı başlayır. Xiyaban 2018-ci ilin noyabr ayında əsaslı təmir edilərək, sakinlərin ixtiyarına verilmişdir. Kompleksin açılışı ölkə başçısı cənab İlham Əliyevin Göyçaya səfər etdiyi vaxtlara təsadüf etmişdir.




Müasir Göyçay yeni infrastruktur layihələri və münbit biznes mühiti ilə də diqqətimizi cəlb etdi. Şəhərin Nərimanov küçəsində Avropa standartlarına uyğun inşa edilmiş və idarəetmədə heç də bu standartlardan geri qalmayan “Terrase” ictimai iaşə obyekti sakinlərin və qonaqların ən çox təşrif buyurduğu məkandır. Deyilənə görə, hətta ənənəvi “NaR” festivalının qonaqları bu kafedəki istirahət etdikləri məqamlardan ağızdolusu danışırlar, razılıqlarını bildirirlər.

Məlum olduğu kimi, Göyçayın narı onun vizit kartıdır. Amma narla yanaşı, bu bərəkətli diyarın torpağında yetişən heyvanın, xurmanın, üzümün, hətta naringinin də xüsusi dadı var. Regionların inkişaf proqramına uyğun olaraq, emal sənayesinin daha da inkişaf etdirilməsi məqsədilə “Aznar” QSC-nin ərazisində yerli şərab istehsalı sexi inşa edilmiş və burada ən müasir tələblərə cavab verən avadanlıqlar quraşdırılmışdır.

Göyçay rayonunun iqtisadiyyatında kənd təsərrüfatı, emal sənayesi və sənayenin digər sahələri aparıcı rola malik olmuşdur. Bununla belə, rayonda telekommunikasiya, tikinti, nəqliyyat, ticarət, iaşə və s. xidmət sahələri də inkişaf etmişdir. Göyçay rayonu keçmiş SSRİ dövründə çox güclü sənaye potensialına malik olmuşdur. Rayonda əvvəllər fəaliyyət göstərən Toxuculuq Kombinatı, Konserv Zavodu, Yeyinti Məhsulları Kombinatı, Avtomobil Təmiri Zavodu respublikanın iri müəssisələrindən sayılırdı. Sovetlər İttifaqının dağılması ilə digər respublikalarla iqtisadi ələqələrin qırılması rayonun iri sənaye müəssisələrinin fəaliyyətinin müvəqqəti dayanması ilə nəticələndi. Hazırda bu müəssisələrdə təsərrüfat fəaliyyətinin davam etdirilməsi istiqamətində fəal iş aparılır..

Yeri gəlmişkən, 2018-ci ilin doqquz ayında rayon üzrə əsas iqtisadi göstəricilərin yerinə yetirilməsi istiqamətində əməli tədbirlər görülmüş, yanvar-sentyabr aylarında rayon iqtisadiyyatının əsas sahələri üzrə 207,8 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir.

Aqrar sahədə daha çox uğurlar əldə edilmişdir. 2018-ci ilin doqquz ayının yekununda göstərilir ki, 14,7 min hektar sahədə taxıl biçilmiş və 42,7 min ton məhsul toplanmışdır ki, bu da 2017-ci ilə nisbətən 721,6 ton çoxdur. Ötən ilin müvafiq dövrünə nisbətən ət, süd, yumurta istehsalı, mal-qaranın, qoyunların baş sayı artmışdır. Bütövlükdə kənd təsərrüfatında ümumi məhsul istehsalı 89,2 milyon manat təşkil etmişdir. Qeyd edək ki, rayonun təsərrüfatlarında faraş tərəvəz istehsalına da üstünlük verilir. Bu məqsədlə 277,65 hektar ərazidə 7581 örtülü istixana quraşdırılmışdır. İstehsal edilən faraş tərəvəz əsasən Rusiya bazarına ixrac edilmişdir. Rayon ərazisində hazırda xurma və nar yığımı davam edir. 6040 ha meyvə bağlarından 3740 ha nar, 1470 ha xurma meyvə bağları təşkil edir. Bu günə kimi mövcud nar və xurma bağlarından 40000 ton məhsul toplanıb və çeşidlənərək, Rusiya və Ukrayna bazarlarına ixrac edilməkdədir. Bu il nar və xurma boldur.

Rayon ərazisində 15 min ha payızlıq taxıl əkinləri nəzərdə tutulur ki, bu günə kimi 14100 ha torpaq sahəsində şum, 12129 ha torpaq sahəsində payızlıq taxıl əkini, o cümlədən 5734 ha sahədə buğda, 5495 ha sahədə payızlıq arpa əkini aparılmışdır. İpəkçiliyin inkişafı ilə əlaqədar yem bazasının artırılması üçün son 2 ildə 138000 ədəd Çin Xalq Respublikasından gətirilmiş tut tingləri, 56600 ədəd yerli tut tingləri əkilmişdir. Bu sahədə işlər davam etdirilir. Cari ildə 150000 ədəd Çin Xalq Respublikasından gətirilməsi nəzərdə tutulan tut tingləri, 117000 ədəd yerli tut tingləri əkilməsi nəzərdə tutulur. Həmin tinglər rayonun bütün kəndlərini əhatə edəcəkdir. Rayon icra hakimiyyəti tərəfindən yaradılmış komissiya tərəfindən əkilməsi nəzərdə tutulan torpaq sahələrinə baxış keçirilir və mütəxəssislər tərəfindən rəy verilir. Göyçay Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri qrafik əsasında kəndlərdə mütəmadi olaraq kənd təsərrüfatı məhsulları istehsalçıları ilə maarifləndirici görüşlər keçirirlər.

Baramaçılığın inkişafı prioritet olaraq qalır. Cari mövsümdə 12500 kq barama tədarük edilmişdir ki, bu da keçən ilə nisbətən 7207 kq və ya 2,4 dəfə çoxdur.

Rayon ərazisində tikinti, abadlıq və quruculuq sahəsində xeyli işlər görülmüş, avtovağzalın yeni binası istifadəyə verilmişdir. Şəhər ərazisində küçə və dalanlara, çoxmənzilli binaların həyətlərinə yeni asfalt örtüyünün salınması işləri davam etdirilir.

Hazırda Heydər Əliyev parkının ərazisində Bayraq Muzeyinin tikintisi, Heydər Əliyev prospektindəki xiyabanda abadlıq və əsaslı yenidənqurma işləri aparılır. Rayon əhalisinə kənd təsərrüfatı məhsulları satışında lazımi qayda yaradılması üçün tədbirlər davam etdirilmiş, əhalinin rahatlığını təmin etmək üçün şəhərin M.Hüseynzadə küçəsindəki “Təzə bazar”a bitişik ərazidə kənd təsərrüfatı məhsullarının pərakəndə satışını təşkil etmək məqsədi ilə talvarlar quraşdırılmış, əraziyə asfalt örtüyü salınmışdır. Burada kənd təsərrüfatı məhsullarını satanlar üçün normal şərait yaradılmış, bazarın xidmətindən istifadə edənlərə nəqliyyat vasitələrinin parklanması üçün yerlər ayrılmışdır. Hazırda bazar ərazisində işlər davam etdirilir.

Asiya İnkişaf Bankının krediti hesabına maliyyələşən Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulma layihəsi çərçivəsində rayonun Şəhadət kəndində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksinin tikintisi başa çatdırılmış, qurğunun işə salınması üçün son sazlama və sınaq işləri davam etdirilir. İlin sonuna qədər gün ərzində 10 min kubmetr çirkab su təmizləmə gücü olan kompleksin istifadəyə verilməsi nəzərdə tutulur.

Rayon ərazisində yol infrastrukturunun təkmilləşdirilməsi, yerli əhəmiyyətli kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslı təmiri işləri davam etdirilir. Bığır-Çırqurd-Şəkər-Veysəlli-Alıkənd-Mırtı avtomobil yolunun yenidən qurulması işləri başa çatdırılmış, uzunluğu 23 km olan Cəyirli-Alpout kəndlərarası avtomobil yolunun tikintisinə başlanılmış, yolun Alpout kəndindən Mırtı kəndinə qədər olan hissəsində tikinti işləri əsasən yekunlaşmışdır. Mırtı-Cəyirli hissəsində isə hazırda tikinti işləri aparılır- suötürücüləri quraşdırılır, yolun çökmüş hissələrində möhkəmləndirmə işləri görülür.



Qəzalı vəziyyətdə olan məktəb və məktəbəqədər müəssisələr üçün yeni binalarının tikintisi istiqamətində işlər də davam etdirilir.

Rayonun Alıkənd kəndində modul tipli 40 şagird yerlik ibtidai məktəb binası inşa edilmiş, yerli iş adamlarının vəsaiti hesabına rayonun Potu kənd tam orta məktəbi əsaslı təmir edilmiş və 8 yeni sinif otağı istifadəyə verilmişdir. Hazırda Alpout kəndində Heydər Əliyev Fondunun təşəbbüsü ilə yerli imkanlar hesabına 40 yerlik uşaq bağçasının tikintisində son tamamlama işləri aparılır. Veysəlli kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin tikilməsi üçün torpaq sahəsi seçilmiş və layihə-smeta sənədlərinin hazırlanmasına başlanılmışdır.

Göyçayda əhalinin həyat səviyyəsi xeyli yaxşılaşmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,3%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 1,9 %-i keçmişdir. 696 yeni iş yeri yaradılmışdır. Yeni iş yerlərinin açılması rayon rəhbərliyinin diqqət mərkəzindədir.

Rayon əhalisinin içməli su, elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilir. “Azərsu” ASC tərəfindən rayonun 16 kənd yaşayış məntəqəsinə içməli suyun verilməsi üçün tədbirlər görülmüş, kəndlərin ərazisində 164 bulaq quraşdırılmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən rayonun 6 kənd yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular, o cümlədən 101 ədəd bulaq quraşdırılaraq istifadəyə verilmiş, bütövlükdə bu kəndlərdə yaşayan 35 min nəfərdən artıq kənd sakininin içməli su ilə təminatı yaxşılaşmışdır.

Göyçayın Mallı-Şıxlı, Çərəkə, Alxasava, Bığır, Şəkili, Ərəbcəbirli, Mollahacılı, Ulaşlı-Şıxlı, Xəlitli, Çayarxı kəndlərində istifadəyə yararsız güc transformatorları, şəhər və kəndlərdə yaşayış məntəqələrinin ərazisində 550 ədəd 0,4 kv-luq, 149 ədəd 10 kv-luq qəzalı vəziyyətdə olan dayaqlar yeniləri ilə əvəz edilmiş, 181 ədəd transformator cari və əsaslı təmir edilmiş, 21,2 km uzunluğunda yükünü özüdaşıyan naqillər çəkilmişdir.

Çaxırlı, Ləkçılpaq və Çərəkə kəndlərinə təbii qaz verilişi bərpa edilərək qazla təmin olunan rayon yaşayış məntəqələrinin sayı 47-ə çatdırılmışdır. Hazırda rayon üzrə 26628 təsərrüfatın 25869-na qaz xətti çəkilmiş, ümumi qazlaşma səviyyəsi 97%-ə çatmışdır ki, bu da orta respublika göstəricisindən çoxdur.

Göyçay rayonunda vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşılır. Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadənin iştirakı ilə keçirilən çoxsaylı səyyar-görüşlərdə əhalinin rastlaşdığı müxtəlif problemlər müzakirə obyektinə çevrilir, onların həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülür. Rayon ağsaqqalları və ziyalıları ilə görüşümüzdən bəlli oldu ki, icra hakimiyyətinin başçısı M.Səlimzadə daim onların rayonun inkişafı və mövcud problemlərlə bağlı təkliflərinə xüsusi əhəmiyyət verir. Bu da təbiidir. Hər bir işdə uğur qazanmaq üçün dünyagörmüşlərin tövsiyəsinə və məsləhətinə ehtiyac var.






Bu gün dövlətimizin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, çinarlar şəhəri Göyçay da digər bölgələrimizin rayonları kimi, regional inkişaf proqramı çərçivəsində inkişaf edir, müasirləşir. Əlbəttə ki, bu inkişaf, bu tərəqqi bir daha ölkəmizin qüdrətlənməsindən, xalqımızın güzəranının yaxşılaşmasından xəbər verir.

**Maarif RZAYEV,**
**“Respublika”.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika QİÇS-lə mübarizə mərkəzi açıq tender elan edir

Tender 4 (dörd) lot üzrə aparılır:

Lot-1. İdarənin digər xərcləri

Lot-2. Mətbəə xərcləri

Lot-3. Əyani vəsaitlərin hazırlanması

Lot-4. Tədbirlə əlaqədar nəşr vəsaitləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 50 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Mir Qasımov küçəsi 1/8 ünvanından ala bilərlər.

Bank: Beynəlxalq Bankın Nəsimi filialı

Kodu: 805614

S.W.İ.F.T. BİK:AİİBAZ2X

VÖEN: 1400463891

Hesab: 33205019449702001207

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün ərizə;

—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—tender təklifi (zərflər açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);

—tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);

—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanlarından arayış;

—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;

—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı;

—işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 yanvar 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi və bank zəmanəti 24 yanvar 2019-cu il saat 17:00-a qədər təqdim edilməlidir.

Təklif zərfləri 25 yanvar 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

## Tərtər Rayon Düyərli kənd İƏD Yuxarı Sarıcalı kənd körpələr evi-uşaq bağçası əsaslı təmir işlərinin görülməsi üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.12.2018-ci il tarixədək qəbul olunur.

**Əlaqə telefonu: 050-590-49-96, S.Muradov.**

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Akademik M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxananın fasad və pəncərələrin yuyulması və təmizlənməsi işlərinin kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 07 dekabr 2018-ci il tarixli yekun protokoluna əsasən "GATEVAY SERVİCE" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

**Ünvan:** *AZ1001, Bakı şəhəri, Zərgərpalan küçəsi 4. Əlaqələndirici şəxs Ə.Qasımov, Telefon: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Akademik M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxananın kommunal və kommunikasiya xidmətlərinin çəkilişi, quraşdırılması və təmiri ilə bağlı işlərinin kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 07 dekabr 2018-ci il tarixli yekun protokoluna əsasən "AREA SERVICE" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

**Ünvan:** *AZ1001, Bakı şəhəri, Zərgərpalan küçəsi 4. Əlaqələndirici şəxs Ə.Qasımov, Telefon: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az*

**Tender Komissiyası.**

## KOTİROVKA SORĞUSU

Azərbaycan Tibb Universiteti "Dövlət Satınalamaları haqqında" Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə uyğun olaraq

"Yumşaq inventarın alınması"

"Digər maşın və avadanlıqların alınması" maddəsi üzrə kotirovka sorğusu keçirir.

Satınalmada iştirak etmək istəyənlər 11.12.2018-ci il saat 15.00-dək Azərbaycan Tibb Universitetinin tender komissiyasına müraciət edə bilərlər.

Təkliflər 13.12.2018-ci il saat 11.00-da Azərbaycan Tibb Universitetinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

**Ünvan:** *Bakı şəhəri, Ənvər Qasımzadə 14*

**Əlaqə telefonu:** *597-42-60*

**Əlaqələndirici şəxs:** *Əhmədov Tağı Rəşid oğlu.*

**Tender Komissiyası.**

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

**1.** Dəftərxana və təsərrüfat mallarının

kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 32 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 12 dekabr 2018-ci il saat 15:00 tarixədək qəbul olunur.

***Ünvan: Bakı şəhəri, Salatın Əsgərova 85***

Əlaqəli şəxs: Tender komissiyası

## Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaq, sosial xidmət müəssisəsi

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Dəftərxana və təsərrüfat xərcləri.

Sənədlər 12 dekabr 2018-ci il saat 12:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən 29.09.2018-ci ildə və 26.10.2018-ci ildə "Respublika" qəzetində, 01.10.2018-ci ildə "tender.gov.az" internet səhifəsində "Bakı şəhəri, Yasamal rayonu, 1033-cü məhəllə, Tbilisi prospekti 33 ünvanında yerləşən "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin ofis binasının təmir və tikinti işləri"nin satınalınması barədə verilmiş açıq tender elanı üzrə 13.11.2018-ci ildə keçirilmiş açıq tender prosedurunda qalib müəyyən olunmamışdır. Tender komissiyası "Dövlət satınalmaları haqqında" 27 dekabr 2001-ci il tarixli 245-IIQ nömrəli Azərbaycan Respublikası Qanunun 11.2. maddəsinə əsasən bütün tender təkliflərininin rədd edilməsi barədə qərar qəbul etmişdir.

**"ASK" ASC Tender Komissiyası.**

## BİLDİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən 25.05.2018-ci ildə və 09.06.2018-ci ildə "Respublika" qəzetində, 25.05.2018-ci ildə və 11.06.2018-ci ildə "tender.gov.az" internet səhifəsində dərc edilmiş "Azərbaycan Sənaye Korporasiyası" ASC üçün Kargüzarlıq proqram təminatının quraşdırılması və müvafiq təlimlərin keçirilməsi (Lot 3) satınalınması barədə verilmiş tender elanı üzrə 13.07.2018-ci ildə açıq tender proseduru keçirilmişdir. Keçirilmiş açıq tender prosedurunda qalib müəyyən olunmamışdır. Tender komissiyası "Dövlət satınalmaları haqqında" 27 dekabr 2001-ci il tarixli 245-IIQ nömrəli Azərbaycan Respublikası Qanunun 11.2. maddəsinə əsasən bütün tender təkliflərininin rədd edilməsi barədə qərar qəbul etmişdir.

**"ASK" ASC Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən "15" noyabr 2018-ci il tarixdə "Tunellərdə istifadə olunan Une=3.6kV, İr= 1250 A, İncw=50kA olan DC Ayırıcının satınalınması üzrə Tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq, keçirilən tenderdə iştirak etmiş şirkətlər arasında "Atenau LTD" MMM 145435.00 (yüz qırx beş min dörd yüz otuz beş manat 00 qəpik ) manat məbləği ilə Tender Komissiyasının qərarı ilə bu lot üzrə qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 06.12.2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş "Bakı Metropoliteni" QSC xəttlərinin konseptual inkişaf sxeminə görə Bənövşəyi xəttin şərti adı "B5" stansiyası və ona bitişik ərazilərin 1:500 miqyasda kompleks topoqrafik planalması işlərinin "Kotirovka sorğusu" üsulu ilə satın alınmasına dair müsabiqədə hüquqi şəxs "GEOİD" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 05.12.2018-ci il tarixdə ƏDV daxil 14 160,00 manat (on dörd min yüz altmış manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

## AÇIQ TENDER ELANI

**Tenderin predmeti:**

**Lot-1 üzrə "Müxtəlif təsiredici maddələrə malik herbisid (2000 kq və 173000 litr), funqisid (500 litr), insektisid (5000 kq və 3000 litr), insekto-akarasid (1000 litr) və defoliant (5000 litr) istifadə istiqamətli pestisidlərin satınalınması"**

Tenderin qalibi olmuş iddiaçılar satınalınacaq malları "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin regional nümayəndəlikləri və onların rayon bölmələrinin anbarlarında təhvil verməlidirlər. Tender iştirakçılarına təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı sürətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

"Aqrolizinq" ASC qarşısında yerinə yetirilməmiş və ya lazımi səviyyədə yerinə yetirməmiş öhdəliyi olan fiziki və hüquqi şəxslər bu tenderdə iştirak edə bilməzlər.

Maraqlananlar tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Həsənova Leyla Tofiq qızı**

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi, 12**

**Tel.: 425-62-18; Faks: 425-64-27**

**E-mail: h.leyla@agrolizing.gov.az**

Tenderin əsas şərtlər toplusu Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda beynəlxalq ticarətdə istifadə edilən dillərin birinə tərcümə olunacaqdır. Maraqlananlar əsas şərtlər toplusunu 2000 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürə bilərlər:

*Təşkilat: "Aqrolizinq" ASC-VÖEN:1700382471; H/h: AZ91AİİB38070019443500231102 AZN*

*Kapital Bank Mərkəz filialı-Kod: 200026; VÖEN: 9900003611*

*M/h: AZ37NABZ01350100000000001944; S.W.İ.F.T.: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 25 yanvar 2019-cu il tarixinə kimi aşağıdakı sənədləri (tender təklifi və 2% bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*- iştirak haqqının ödənilməsi barədə sənəd;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının vergilər və sosial sığorta ödənişləri üzrə borcunun olmaması barədə müvafiq vergi orqanları və DSMF tərəfindən təsdiq olunmuş sənəd;*

*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə məlumat, dövlət qeydiyyatı haqqında şəhadətnamənin, dövlət reyestrindən çıxarışın və nizamnamənin notarial qaydada təsdiq edilmiş surəti.*

Bundan əlavə, Tender təklifi və bank təminatı möhürlənmiş bağlı zərflərdə 04 fevral 2019-cu il, saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 2% həcmində bank təminatı verilməlidir. Bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır. Bank təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır.

Bank təminatını və tender təklifini bağlı zərfdə təqdim etməyən iddiaçıların təklifi etibarsız sayılır.

Bağlı zərflər 05 fevral 2019-cu il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 27 noyabr 2018-ci il tarixdə "Xətai" stansiyasının əsaslı təmiri üçün zəruri olan tikinti quraşdırma işlərinin 6 lot üzrə açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə

